## PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı, ilk növbədə, Ankarada dəmir yolu qəzası nəticəsində insan tələfatı ilə əlaqədar başsağlığı verib. Prezident İlham Əliyev Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bu gün ən yüksək səviyyədə olduğunu qeyd edib...



Bax səh. 2

## PREZİDENT İLHAM ƏLİYEV İRANIN İNFORMASİYA VƏ MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də İran İslam Respublikasının informasiya və milli təhlükəsizlik naziri Seyid Mahmud Ələvini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan-İran əlaqələrinin çox uğurla inkişaf etdiyini və bu gün yüksək səviyyədə olduğunu deyib. Prezident İlham Əliyev həm özünün İrana, həm də İran Prezidentinin Azərbaycana səfərlərini...



Bax səh. 2



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 15 dekabr 2018-ci il, şənbə / № 237 (5364). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev Xalq rəssamı Tahir Salahovun 90 illik yubileyinə həsr edilən sərgi ilə tanış olub





## Prezidentin iş günü

Prezident İlham Əliyev Kürdəmir rayonunun Karrar-Bağman-Böyük Kəngərli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarına ali hərbi və ali xüsusi rütbələrin verilməsi haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarına "Əməkdar mühəndis" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının təltif edilməsi haqqında Sərəncam imzalayıb.

### Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın bir qrup rusiyalı qadının məktubuna cavabı



Bu yaxınlarda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ünvanına 2018-ci ilin oktyabr ayında "Qadınlar sülhün tərəfdarıdır" təşəbbüsü çərçivəsində Azərbaycanın Ermənistan tərəfindən...

Bax səh. 3



## AZƏRBAYCAN HÖKUMƏTİ İLƏ USAID ARASINDA ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNUB

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov dekabrın 14-də Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Avropa və Avrasiya bürosu üzrə administratorunun müavini...

Bax səh. 4

## REGİONLARDA ARIÇILIĞIN İNKİŞAFI ÜÇÜN STİMULLAŞDIRICI TƏDBİRLƏR GÖRÜLÜR

Son illərdə qeyri-neft iqtisadiyyatının üstün inkişafının təmin olunmasını hədəfləyən Azərbaycanda aqrar sektorda bir sıra gəlirli sahələrdə istehsal və ixrac imkanlarının artırılmasına xüsusi diqqət göstərilir. Belə gəlirli sahələrdən biri də arıçılıqdır. Məlum olduğu kimi, Prezident İlham Əliyev 2018-ci il 5 mart tarixində "Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında" müvafiq Sərəncam imzalayıb. Sərəncama əsasən, arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə 2018-ci il də daxil olmaqla, 5 il müddətində ildə 10 manat məbləğində subsidiya müəyyən edilib. Kənd təsərrüfatı nazirinin müavini İlham Quliyevin bildirdiyinə görə, stimullaşdırıcı tədbirlər hesabına respublikada arı ailələrinin sayının 2 dəfə artacağı proqnozlaşdırılır. Hazırda isə ölkədə 250-300 min arı ailəsi mövcuddur. Respublikamızda arıçılığın inkişafının stimullaşdırılması haqqında müvafiq Sərəncamın icrası yüksək səviyyədə təmin edilir...

Bax səh. 8



## BAKIDA PARLAMENTLƏRARASI İTTİFAQIN GƏNC PARLAMENT ÜZVLƏRİNİN 5-Cİ QLOBAL KONFRANSI İŞƏ BAŞLAYIB

Dekabrın 14-də Bakıda Parlamentlərarası İttifaqın Gənc Parlament Üzvlərinin 5-ci Qlobal Konfransı işə başlayıb. AZƏRTAC xəbər verir ki, tədbirdə 44 ölkədən 170 nümayəndə, o cümlədən...

Bax səh. 4

### Bakıda informasiya təhlükəsizliyinin aktual problemlərinə dair konfrans keçirilib

Dekabrın 14-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin və İnformasiya Texnologiyaları İnstitutunun birgə təşkilatçılığı ilə "İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi-praktik problemləri" IV respublika konfransı keçirilib. Tədbirdə ölkənin müvafiq dövlət qurumları, ali təhsil müəssisələri və AMEA-nın elmi-tədqiqat institutlarının informasiya texnologiyaları (İT) sahəsi üzrə tədqiqatçıları və...

Bax səh. 6

### Bakı Ekspo Mərkəzində dünya şöhrətli rəssam Tahir Salahovun 90 illik yubileyinə həsr edilən sərgi açılıb



Dekabrın 14-də Bakı Ekspo Mərkəzində dünya şöhrətli rəssam Tahir Salahovun 90 illik yubileyinə həsr edilən sərginin açılışı olub. AZƏRTAC xəbər verir ki, tədbirdə Tahir Salahovun keçdiyi həyat yoluna...

Bax səh. 2

### Müqəddəs Taxt-Tacın apostol nunsisi: Azərbaycan multikulturalizmi bütün dünyaya parlaq nümunədir

Dünyanın əksər ölkələrində insanlar islamofobiya, ksenofobiya ilə qarşılaşırlar. Azərbaycanda isə bütün dinlərə mənsub insanlar azad...



Bax səh. 5

### Bakıda QDİƏT Xarici İşlər Nazirləri Şurasının 39-cu iclası keçirilib

Dekabrın 14-də Bakıda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Xarici İşlər Nazirləri Şurasının 39-cu iclası keçirilib. AZƏRTAC xəbər verir ki...



Bax səh. 5

### Bakı Dövlət Universitetinin hüquq fakültəsinin 90 illik yubileyi təntənəli şəkildə qeyd edilib

Dekabrın 14-də Bakı Dövlət Universitetində (BDU) bu ali məktəbin hüquq fakültəsinin yaranmasının 90 illiyinə həsr edilmiş "Azərbaycan...



Bax səh. 5

### Baş katib Maykl Kristides: QDİƏT-ə sədrliyi dövründə əldə edilən irəliləyişlərə görə Azərbaycana təşəkkürümü bildirirəm

Azərbaycanın Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına altı aylıq sədrliyi müddətində QDİƏT məkanında təhlükəsiz...

Bax səh. 5

# Prezident İlham Əliyev Türkiyənin xarici işlər nazirini qəbul edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı, ilk növbədə, Ankarada dəmir yolu qəzası nəticəsində insan tələfatı ilə əlaqədar başsağlığı verib. Prezident İlham Əliyev Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bu gün ən yüksək səviyyədə olduğunu qeyd edib, 2018-ci ilin əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından çox məhsuldar il olduğunu deyib. Özünün Türkiyəyə çoxsaylı səfərlərinə və eləcə də Türkiyə Prezidentinin Azərbaycana səfərlərinə toxunan dövlətimizin başçısı bildirib ki, birgə iştirak etdiyimiz layihələrin açılışları, Azərbaycanla Türkiyənin təşkil etdiyi hərbi parad və digər önəmli hadisələr birliyimizi bütün dünyaya nümayiş etdirib. Birgə həyata keçirilən layihələrdən danışan Prezident İlham Əliyev TANAP, TAP, Bakı-Tbilisi-Qars və eləcə də digər layihələrin dünya üçün böyük əhəmiyyət daşıdığını və ölkələrimizin bütün məsələlərlə bağlı bir-birini dəstəklədiyini deyib. Dövlətimizin başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli işində Türkiyənin hər zaman birmənalı şəkildə Azərbaycanın yanında olduğunu və Türkiyənin bu məsələ ilə bağlı verdiyi son açıqlamaları məmnunluq hissi ilə qeyd edib, qardaş ölkənin bu mövqeyinə görə minnətdarlığını bildirib.

Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu qəbula və başsağlığına görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Mövlud Çavuşoğlu Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırıb.

Türkiyəli nazir qeyd edib ki, qardaş Azərbaycan və Azərbaycanın lideri Prezident İlham Əliyev hər zaman Türkiyənin yanında olub və Türkiyə də eyni şəkildə həmişə Azərbaycanın yanındadır. Mövlud Çavuşoğlu Bakıda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Xarici İşlər Nazirləri Şurasının 39-cu iclasına toxunaraq bu tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə təbriklərini çatdırıb. O, Azərbaycanın mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrildiyini məmnunluqla qeyd edib. Mövlud Çavuşoğlu bildirib ki, Azərbaycan və Türkiyə dövlətləri başçılarının səmimi dostluğu və qardaşlığı, onların verdiyi tapşırıqlar sayəsində iki ölkənin Xarici İşlər nazirlikləri sıx qarşılıqlı fəaliyyət göstərirlər. O, eyni zamanda, ölkələrimizin həyata keçirdiyi qlobal layihələrin önəmini qeyd edib və qarşıda bir çox görüləsi mühüm işlərin olduğunu deyib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan nazir bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü əsasında həlli ilə bağlı Türkiyənin bundan sonra da güclü dəstək verəcəyini qeyd edib.

Söhbət zamanı ikitərəfli münasibətlərin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirib, Onun da salamlarını və ən xoş arzularını Türkiyə Prezidentinə çatdırmağı xahiş edib.

# Prezident İlham Əliyev İranın informasiya və milli təhlükəsizlik nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də İran İslam Respublikasının informasiya və milli təhlükəsizlik naziri Seyid Mahmud Ələvini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan-İran əlaqələrinin çox uğurla inkişaf etdiyini və bu gün yüksək səviyyədə olduğunu deyib. Prezident İlham Əliyev həm özünün İrana, həm də İran Prezidentinin Azərbaycana səfərlərini məmnunluqla xatırlayaraq bu səfərlərin münasibətlərimizin möhkəmlənməsində rolunu qeyd edib. Xalqlarımız arasında əlaqələrin dərin tarixi köklərə malik olduğunu deyən Prezident İlham Əliyev bu gün bizim dost və qardaş iki ölkə kimi əlaqələrimizin genişləndiyini vurğulayıb. Dövlətimizin başçısı ölkələrimizin ikitərəfli əsasda imzaladığı sənədlərin uğurla icra edildiyini bildirib. Prezident İlham Əliyev İran İslam Respublikasının informasiya və milli təhlükəsizlik naziri Seyid Mahmud Ələvinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

İnformasiya və milli təhlükəsizlik naziri Seyid Mahmud Ələvi, ilk növbədə, İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin səmimi salamlarını dövlətimizin başçısına çatdırıb. O bildirib ki, Prezident Həsən Ruhani Azərbaycan Prezidenti barəsində danışan zaman Onu bir qardaş kimi görür və hər zaman Prezident İlham Əliyevin qurucu insan olduğunu qeyd edir.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirib, Onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş edib.

# Prezident İlham Əliyev Xalq rəssamı Tahir Salahovun 90 illik yubileyinə həsr edilən sərgi ilə tanış olub







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 14-də Bakı Ekspo Mərkəzində Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı, dünya şöhrətli rəssam Tahir Salahovun 90 illik yubileyinə həsr edilən sərgi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, sərginin ekspozisiyasında Tahir Salahovun şəxsi kolleksiyasından, Azərbaycan Milli İncəsənət Muzeyinin, Azərbaycan Xalça Muzeyinin və Azərbaycan Dövlət Rəsm Qalereyasının fondlarından seçilmiş 80-dək xalça, 40-dək rəngkarlıq və rəsm əsəri, eləcə də 350-dək fotoşəkil nümayiş olunur. Dörd min kvadratmetrlik sahəni əhatə edən ekspozisiyada rəssamın yaradıcılığının bütün dövrlərini əks etdirən əsərləri yer alıb. Fotoşəkillər Tahir Salahovun dünyanın məşhur elm, incəsənət və dövlət xadimləri ilə görüşlərini, onun həyatının maraqlı anlarını əks etdirir.

Ulu öndər Heydər Əliyevin Tahir Salahovla şəxsi münasibəti və dostluğu olub. Çoxşaxəli yaradıcılığı, məhsuldar ictimai fəaliyyəti xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirilən Tahir Salahov müstəqil Azərbaycan Respublikasının ən ali təltiflərinə - 1998-ci ildə "İstiqlal", 2008-ci ildə "Heydər Əliyev" ordenlərinə, 2015-ci ildə Heydər Əliyev mükafatına, bu il isə 1-ci dərəcəli "Əmək" ordeninə layiq görülüb. Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə rəssamın 80 illik yubileyi dövlət səviyyəsində qeyd olunub, İçərişəhərdə ev-muzeyi fəaliyyətə başlayıb. Bunlarla yanaşı, dahi fırça ustasının çoxsaylı beynəlxalq mükafatları da var ki, bu, onun sənətinə göstərilən ehtiramın parlaq təzahürüdür.

Dövrümüzün böyük sənətkarı və tanınmış ictimai xadimi olan Tahir Salahov müasir rəssamlıq məktəbinin görkəmli nümayəndəsi kimi uzunmüddətli, səmərəli və bənzərsiz yaradıcılığı ilə zəngin mədəniyyət salnaməmizə yeni səhifələr yazıb. Eyni zamanda, milli sənət xəzinəmizin qızıl fondunda özünə həmişəlik layiqli yer tutan əsərləri ilə Azərbaycan təsviri sənətinə dünyada geniş şöhrət qazandırıb. Böyük sənətkar "Sərt üslub"un banilərindən biridir. Onun bu üslubda yaratdığı sənət nümunələrində insan taleyi vasitəsilə dünyaya, həyata baxışı və fəlsəfi düşüncələri rənglərin ən incə çalarları ilə dolğun ifadəsini tapıb. Tahir Salahov həm də Azərbaycan incəsənətinin çoxəsrlik ənənələrini Avropa boyakarlıq məktəbinin nailiyyətləri ilə birləşdirib. Onun mövzu, forma, janr əlvanlığı və estetik kamilliyi ilə seçilən ecazkar rəsmləri ülvi bəşəri dəyərlər və ali məqsədlər naminə humanist fikirləri təlqin edir.

Tahir Salahov haqlı olaraq təsviri incəsənətin canlı klassiki və bütöv bir üslubun banilərindən biri hesab olunur. Onun əsərləri dünya mədəniyyəti xəzinəsinə, XX və XXI əsrlərin təsviri incəsənətinin qızıl fonduna daxildir. Böyük sənətkarın heyrətamiz portret yaradıcılığı isə sənətsevərlər tərəfindən daim rəğbətlə qarşılanıb. O, Vətənə məhəbbət dolu silsilə lövhələr, peyzajlar və natürmortlarında insanın təbiətlə dərin məna kəsb edən ahəngdar mənəvi vəhdətini əks etdirməyə müvəffəq olub. Tahir Salahovun Azərbaycan rəngkarlığının inkişafında bütöv bir dövrü təşkil edən əsərləri bu gün dünyanın mötəbər muzeylərini, məşhur qalereyalarını bəzəyir və şəxsi kolleksiyalarda saxlanılır. Onun mühüm mədəni hadisəyə çevrilən fərdi sərgiləri isə Azərbaycan mədəniyyətinin xarici ölkələrdə təbliğində böyük rol oynayır. O, həmçinin böyük ustad, gözəl pedaqoq kimi tanınır. Böyük sənətkarın milli rəssamlığın gələcək inkişafı naminə gördüyü işlər çoxdur. Bu mənada onun gənc fırça ustalarının yetişdirilməsi sahəsində xidmətləri təqdirəlayiqdir.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dünya şöhrətli rəssam Tahir Salahovu 90 illik yubileyi münasibətilə bir daha təbrik ediblər, ona yeni-yeni uğurlar arzulayıblar.

# Bakı Ekspo Mərkəzində dünya şöhrətli rəssam Tahir Salahovun 90 illik yubileyinə həsr edilən sərgi açılıb

Dekabrın 14-də Bakı Ekspo Mərkəzində dünya şöhrətli rəssam Tahir Salahovun 90 illik yubileyinə həsr edilən sərginin açılışı olub.

AZƏRTAC xəbər verir ki, tədbirdə Tahir Salahovun keçdiyi həyat yoluna və zəngin yaradıcılığına nəzər salınıb.

Ulu öndər Heydər Əliyevin dünya şöhrətli rəssam Tahir Salahovun yaradıcılığına daim yüksək diqqətlə yanaşdığını deyən mədəniyyət naziri Əbülfəs Qarayev Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın yubilyara təbrik məktubları ünvanladıqlarını, dövlətimizin başçısının Xalq rəssamı Tahir Salahovu şəxsən qəbul edərək onu 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif etdiyini xatırladıb. O, Tahir Salahovun Azərbaycanın ali mükafatları ilə yanaşı, beynəlxalq səviyyədə layiq görüldüyü mükafatları da qeyd edib. Artıq bir neçə gündür ki, sərginin açılışına hazırlıq işlərinin getdiyini bildirən nazir görkəmli rəssamın ömür-





gün yoluna nəzər salıb. Bildirib ki, onun həyatı və yaradıcılığı olduqca maraqlı və zəngin hadisələrlə doludur.

Sonra Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva dövlətimizin başçısının Tahir Salahova 90 illik yubileyi münasibətilə ünvanladığı təbrik məktubunu oxuyub.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Əsgər Ələkbərov 2011-ci ildən Prezident İlham Əliyevin Sərəncamı ilə İçərişəhərdə Tahir Salahovun ev-muzeyinin fəaliyyət göstərdiyini qeyd edib. Bildirib ki, paytaxtımıza gələn xarici qonaqlar, məktəblilər, gənclər dünya şöhrətli rəssamın ev-muzeyini böyük maraqla ziyarət edirlər.

Sonra Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı, dünya şöhrətli rəssam Tahir Salahov çıxış edib. Bildirib ki, 90 illik yubileyi münasibətilə onu ilk təbrik edən Prezident İlham Əliyev olub. Dövlətimizin başçısına və birinci xanıma ona göstərilən diqqətə, yaradıcılığına verilən yüksək qiymətə görə minnətdarlığını bildirən Tahir Salahov Ulu öndər Heydər Əliyevin də həmişə ona qayğı ilə yanaşdığını vurğulayıb. **"Tale bizi bu gün bu zala toplayıb"**, - söyləyən görkəmli fırça ustası sərginin keçirildiyi məkanın Bakı Ekspo Mərkəzi seçilməsinin təsadüfi olmadığını bildirib. O deyib: **"Bu məkan Bakının qədim, tarixi və müasir abidələrinə, tikililərinə yaxın yerləşir. Xoşbəxtəm ki, bu gün sizinlə birlikdəyəm".**

Sonra sərgi ilə tanışlıq olub.

Qeyd edək ki, Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən sərgi dekabrın 24-dək davam edəcək.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın bir qrup rusiyalı qadının məktubuna cavabı

*Bu yaxınlarda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ünvanına 2018-ci ilin oktyabr ayında "Qadınlar sülhün tərəfdarıdır" təşəbbüsü çərçivəsində Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərinə qeyri-qanuni səfər etmiş rusiyalı bir qrup qadının adından məktub daxil olub. Məktubda bildirilir ki, həmin səfər Ermənistanın baş nazirinin xanımı Anna Akopyanın dəvəti ilə təşkil edilib, həmçinin xahiş olunur ki, bu təşəbbüs dəstəklənsin və Azərbaycana səfərin təşkilinə kömək göstərilsin.*



**AZƏRTAC rusiyalı qadınların məktubunun tam mətnini, habelə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın cavabını oxuculara təqdim edir.**

"Əziz və çox hörmətli Leyla!

İcazə verin, sosial əhəmiyyətli təşəbbüslərə və layihələrə dərindən cəlb olunmuş bir qrup rusiyalı qadın adından Sizə müraciət edək. Bizim hər birimizin öz missiyası var: hospislərin təşkili və yetim uşaqlara dəstək, senzurasız ədəbiyyat və jurnalistika, idman və əlilliyi olan insanların reabilitasiyası. Lakin fəal həyat mövqeyi və müasir cəmiyyətin ağrılı nöqtələrinə laqeyd qalmamaq hissi bizi birləşdirir.

Oktyabr ayında biz Ermənistanın baş nazirinin xanımı Anna Akopyanın dəvətinə cavab olaraq Ermənistan ilə Azərbaycan arasında artıq bir neçə onillik ərzində hərbi əməliyyatların davam etdiyi əraziyə səfər etdik.

Müharibənin nəticələrinin müdhiş mənzərəsi və bu yerlərin gözəl təbiəti dəhşətli təzad yaradaraq insanı sarsıdır. Azərbaycan ilə Ermənistan arasında cəbhə xəttini cəmi 450 metr ayırır. Bu qısa məsafəni güllə asanlıqla dəf edir. Üzbəüz iki blindaj və hələ çox gənc olan, kamuflyaj geyimli, əllərində avtomat silahlar tutan əsgərlər. Bütün bunların arxasında öz övladlarını itirən anaların heç nə ilə müqayisə olunmayan, ovundurula bilməyən ağrısı dayanır.

Dağlıq Qarabağ münaqişəsinin çoxəsrlik səbəblərinin necə dərin və mürəkkəb olduğunu başa düşürük. Biz çox şeyi bilmirik, heç kəsi qınamağa haqqımız və hazır qərarlarımız yoxdur. Lakin bir məsələyə qəti əminik: 2018-ci ildə övladlarımız güllələrdən həlak olmamalıdırlar. Uşağın doğması-yadı olmur. Dünyanın istənilən nöqtəsində: Suriyada və ya Donetskdə, Rusiyada, Azərbaycanda və ya Ermənistanda başına qara yaylıq bağlamış hər bir ana bizim ümumi faciəmizdir. Biz Sizə Azərbaycanın qədim bir nəslinin nümayəndəsi, görkəmli siyasi xadim Heydər Əliyevin nəvəsi və müstəqil Azərbaycanın Prezidenti İlham Əliyevin qızı və bir də geniş ictimai fəaliyyətlə məşğul olan bir qadın və üç uşaq anası kimi müraciət edirik.

Hər iki münaqişə tərəfinin dərdinə ürəkdən şərik olduğumuzu bildirərək, Sizdən "Qadınlar sülhə tərəfdardır" təşəbbüsünü dəstəkləməyinizi və sülhyaratma ideyasını məntiqi sona çatdırmaq üçün bizim Azərbaycana səfərimizin təşəbbüsçüsü olmağınızı xahiş edirik.

Sizdən xahiş edirik, həyat əlaməti olmayan 450 metrlik ayırıcı zolağın digər, bu dəfə Azərbaycan tərəfində səsimizin eşidilməsinə kömək edin. Bir də çox vacib sözlər demək istəyirik: "Biz sülh istəyirik! Biz düşmənçilik edən tərəflərdən xahiş edirik, XXI əsrdə bizim qardaşlarımızın, oğullarımızın, nəvələrimizin müharibədə daha həlak olmamaları üçün nə mümkündürsə etsinlər. Qoy, qan tökülməsi iyirminci yüzillikdə qalsın, gələcək sülh içində olsun".

Əziz Leyla, Sizdən xahiş edirik, bizim sülhyaratma missiyamızı dəstəkləyin və Azərbaycana səfərimiz üçün vasitəçi olun. Biz çox inanırıq ki, məhz Siz bizim bələdçimiz və məsləkdaşımız ola bilərsiniz.

Hər bir müharibə gec-tez sona çatır. Qoy, bizim ümumi səylərimiz bu sonu yaxınlaşdırsın".

Bu məktubu imzalamış rusiyalı qadınlar qrupuna Olimpiya çempionu Svetlana Jurova, ictimai xadim, "Vera" hospislərə kömək xeyriyyə fondunun təsisçisi Nyuta Federmesser, yazıçı, ictimai xadim Lyudmila Ulitskaya və jurnalist Kira Altman daxildirlər.

* * *

## HEYDƏR ƏLİYEV FONDUNUN VİTSE-PREZİDENTİ LEYLA ƏLİYEVANIN BİR QRUP RUSİYALI QADININ MƏKTUBUNA CAVABI

"Hörmətli Svetlana Jurova, Nyuta Federmesser, Lyudmila Ulitskaya, Kira Altman.

Sizin məktubunuza, başqasının dərdinə biganə qalmadığınıza və artıq iyirmi beş ildən çox davam edən münaqişəyə tezliklə son qoyulmasına kömək etmək istəyinizə görə sizin hamınıza təşəkkür edirəm. Müharibə həmişə kədər və ölüm gətirir. Bu, əsgərlərin və dinc sakinlərin həlak olması, özü bəlkə də öldürülməyən və yaralanmayan, lakin öz yaxınlarını, öz evini itirmiş insanların həyatlarının puç olması deməkdir. Planetimizin bir çox "qaynar nöqtələrində", çoxsaylı "lokal müharibələrin", cəbhə xəttinin müxtəlif tərəflərindən çəkilmiş hərbi xronikaya baxdıqca yəqin edirsən: müxtəlif dillərdə danışan qadınlar eyni cür kədərlə ağlayır. Tanınmış sərhədlərin güc tətbiq etməklə dəyişdirilməsi və başqalarının ərazilərinin işğalı üçün kimlərinsə qurduğu planlar bu gün belə dəhşətli nəticələr verir.

Mən sizinlə tamamilə razıyam: bütün müharibələr haçansa başa çatır və biz hamımız maksimum səy göstərməliyik ki, bu, mümkün qədər tez baş versin. Ona görə ki, münaqişənin hətta indiki, diplomatların təbirincə desək "dondurulmuş" vəziyyətdə davam etdiyi hər gün bizə çox baha başa gəlir. Bəli, bu gün Azərbaycan ilə Ermənistan arasında atəşkəs rejimi qüvvədədir, lakin cəbhə xəttində hər gün atəş açılır. Hər bir belə atəş kiminsə həyatını yarımçıq qoya bilər. Hər iki ordunun əsgərləri, əllərindəki silahdan açılan bir atəş məsafəsində dayanaraq bir-birinə baxan həmin kamuflyajlı gənclər kiminsə oğlu və ya nəvəsi, kiminsə qardaşı və kiminsə sevgilisidir. Müharibədə isə əsgərlərlə bərabər, dinc sakinlər də ölür. Təxminən bir il bundan əvvəl - 2017-ci il iyulun 4-də Azərbaycanda iki yaşlı qızcığaz və onun nənəsi ilə vidalaşdıq. Onlar öz doğma kəndlərində dəzgahlı pulemyotlardan və qumbaraatanlardan açılan atəş nəticəsində öldürülmüşdülər. Bu, acı reallıqdır. İyirmi beş ildən çoxdur ki, biz bu şəraitdə yaşayırıq. Lakin bu, həm də yaxşı bir xatırlatmadır ki, yenidən qan tökülməməsi və yeni qurbanlar verməmək üçün bu gün bizim sülh yolu tapmağımız, özü də onu döyüş meydanında deyil, danışıqlar masası arxasında tapmağımız çox vacibdir.

Azərbaycan sülhsevər ölkədir. Biz müharibəyə tezliklə son qoyulmasının, dialoq yolu ilə həll axtarışının tərəfdarı olmuşuq və tərəfdarıyıq. Bunlar, sadəcə, sözlər deyil. Bizim sülhsevərliyimizə inandırıcı sübut odur ki, Azərbaycan indiki "dondurulmuş müharibə" vəziyyətindən Dağlıq Qarabağda uzunmüddətli və ədalətli sülhə nail olmaq üçün münaqişəsinin nizamlanmasına dair danışıqları iyirmi ildən çoxdur davam etdirir.

Sizin sülhyaratma missiyanızın gedişində səfər etdiyiniz, işğal olunmuş Dağlıq Qarabağ "Ermənistan ilə Azərbaycan arasındakı ərazi" deyil. Dağlıq Qarabağ Azərbaycanın bu gün Ermənistanın işğalı altında olan ayrılmaz hissəsidir. Bu, təkcə bizim ölkəmizin mövqeyi deyil - çoxsaylı beynəlxalq sənədlərdə bu cür təsbit olunub. Rusiya da daxil olmaqla dünya birliyi Azərbaycanı mövcud sərhədləri daxilində tanıyır və Dağlıq Qarabağ bu sərhədlərə daxildir. Hazırda heç bir beynəlxalq hüquqi sənəd yoxdur ki, orada Dağlıq Qarabağın Azərbaycana mənsub olması şübhə altına alınsın, Dağlıq Qarabağ başqa bir dövlətin hissəsi, "mübahisəli ərazi" və ya "Azərbaycan ilə Ermənistan arasındakı torpaq" elan edilsin. Üstəlik, dünya birliyinin bu mövqeyi tarixi reallıqları tam əks etdirir.

Əminəm, ən yaxşısı budur ki, nəyin kimə və nə vaxt mənsub olması barədə mübahisələrin həllini tarixçilərə saxlayaq. "Tarixi ədaləti bərpa etmək" və bu əsasda qonşu ölkənin ərazisinin bir hissəsini işğal etməklə "sərhədlərə düzəliş etmək" - xoş niyyətlər kimi qələmə verilsə də bu, cəhənnəmə aparan yoldur. Təəssüf ki, milyonlarla insan, o cümlədən Cənubi Qafqazda, mənim doğma Azərbaycanımda bu gün insan əli ilə yaradılan bu cür cəhənnəmdə yaşayır. Lakin tarixə ötəri bir ekskurs şübhə yeri qoymur: bütün Qarabağ ta qədimdən Azərbaycanın bir hissəsi, bizim ölkəmizin ərazisində mövcud olmuş dövlətlərin bir hissəsi olub. Erməni dövlətləri isə tarixçilərin vurğuladığı kimi, heç də Cənubi Qafqazda deyil, Kiçik Asiyada formalaşıb və onların müasir Azərbaycan ərazisinə, hətta 1918-ci ildə Azərbaycanın İrəvan xanlığının torpaqlarında yaradılmış indiki Ermənistana da heç bir aidiyyəti olmayıb.

Qarabağdakı xristian kilsələri və monastırları hələ qədim zamanlarda müasir Azərbaycan ərazisində mövcud olmuş Qafqaz Albaniyası dövründə yaranıb. Qarabağ Orta əsrlərdə də Azərbaycanın bir hissəsi kimi qalıb. XIX əsrin əvvəlində, Azərbaycanın Rusiya ilə birləşdirildiyi dövrdə həmin ərazilərdə paytaxtı Şuşada olmaqla Azərbaycanın Qarabağ xanlığı yerləşirdi və onun əhalisinin əksəriyyəti azərbaycanlılar idi. Artıq sonradan - 1813-cü il oktyabrın 12-də Rusiya imperiyası ilə İran arasında Gülüstan müqaviləsi, 1828-ci il fevralın 10-da isə Türkmənçay müqaviləsi imzalanacaq. Məhz bundan sonra etnik ermənilərin İrandan və Osmanlı İmperiyasından Cənubi Qafqaza, müasir Ermənistanın yerləşdiyi İrəvan xanlığı ərazisinə və Qarabağa, əsasən onun dağlıq hissəsinə kütləvi şəkildə köçürülməsi başlanıb. Bu "köçürmə" siyasəti artıq Rusiya imperiyasının süqutu dövründə Cənubi Qafqazda alovlanmağa başlanmış münaqişələrin detonatoru rolu oynayıb. Bu, bir sıra xalqların tarixində faciəli dövr idi. Birinci Dünya müharibəsi, qırğınlar və talanlar çoxsaylı insanların həyatı bahasına başa gəldi. Azərbaycanda hər il martın 31-də 1918-ci ildə erməni millətçiləri tərəfindən Bakıda törədilmiş kütləvi qırğının qurbanlarının xatirəsi günü qeyd edilir. Erməni millətçilər məhz o vaxt ilk dəfə olaraq Dağlıq Qarabağa da iddia irəli sürdülər. Lakin Cənubi Qafqaz Sovet Rusiyasına birləşdiriləndən az sonra ermənilərin Dağlıq Qarabağa iddiaları nəzərdən keçirildi və rədd edildi.

Geniş yayılmış belə bir yanlış fikir var: guya Dağlıq Qarabağ Ermənistanın bir hissəsi olub, lakin ötən əsrin 20-ci illərində ÜİK(b)P MK-nın Qafqaz Bürosunun qərarı ilə Azərbaycanın tərkibinə "verilib". Əslində isə Qafqaz Bürosu bu məsələni həqiqətən nəzərdən keçirib, lakin Dağlıq Qarabağın Azərbaycana "verilməsini" deyil, onun Azərbaycanın tərkibində saxlanmasını qərara alıb. ÜİK(b)P MK-nın Qafqaz Bürosunun 1921-ci il 5 iyul tarixli plenumunun iclas protokolundan (AR Dövlət Tarix Arxivi, f.1, siyahı 2, iş 25, s.16 ob) məlum olur ki, ÜİK(b)P MK-nın Qafqaz Bürosu özünün 1921-ci il 5 iyul tarixli iclasında "...Dağlıq Qarabağın Azərbaycan SSR hüdudlarında saxlanması, inzibati mərkəzi Şuşa şəhərində olmaqla ona geniş muxtariyyət verilməsi..." barədə qərar qəbul edib. Qafqaz Bürosunun rəhbər tutduğu dəlillər sadə və aydın idi: Qarabağın dağlıq hissəsində əhalinin əksəriyyəti ermənilərdir, lakin o, iqtisadi baxımdan Azərbaycanla bağlıdır.

Sonra Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" 1923-cü il 7 iyul tarixli Dekret qəbul etdi (

›

1918›1925. ›

, . 152›153). Məhz həmin dövrdə ilk dəfə olaraq "Dağlıq Qarabağ" termini yaranır və bu muxtar vilayətin yaranması nəticəsində Dağlıq Qarabağ Aran Qarabağdan süni şəkildə ayrılır. Halbuki, bütün tarix boyu Qarabağın bu hissələri vahid tam təşkil edirdi. Yeni yaradılmış muxtar vilayət Azərbaycan ərazisinin daxilində idi və Ermənistanla ərazi təması yox idi. Dağlıq Qarabağ Muxtar Vilayəti ilə Ermənistan arasında əhalisi azərbaycanlılar olan bir neçə rayon yerləşirdi: Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan... Təkcə bu "inzibati coğrafiya" artıq onu göstərir ki, sakinləri ermənilər olan Dağlıq Qarabağ tarixən Azərbaycanın daxilində yarana bilməzdi və o, süni şəkildə, köçürmə siyasəti nəticəsində yaradılıb. Həmin siyasət bu gün həm azərbaycanlılar, həm də ermənilər üçün böyük faciəyə çevrilmiş sürəkli və qanlı müharibə ilə nəticələnib.

Hörmətli xanımlar.

Gəlin həqiqətin gözünə düz baxaq. Artıq iyirmi beş ildən çoxdur ki, erməni millətçilərin Dağlıq Qarabağa iddiaları açıq təcavüz, işğal, qəddar "etnik təmizləmələr" formasında həyata keçirilir. Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal edib. Buraya təkcə Dağlıq Qarabağ deyil, Azərbaycanın Dağlıq Qarabağın ətrafında olan və 1923-cü ildə orada yaradılmış erməni muxtariyyətinə heç vaxt daxil olmamış 7 inzibati rayonunun ərazisi də aiddir.

On minlərlə insanın həyatına son qoymuş bu müharibə hələ də davam edir. Rəsmi statistikada qətlə yetirilmiş və aldığı yaralardan ölmüş insanlarla bərabər, sadəcə, öz yaxınlarının ölümünə, doğma yerlərdən ayrı düşməyə, qaçqınlar və məcburi köçkünlər üçün düşərgələrdə dəhşətli şəraitdə yaşamağa dözməmiş insanlar da hesaba alınır. Azərbaycan bu müharibə və öz torpaqlarının işğal edilməsi nəticəsində əsl humanitar fəlakətlə üzləşib. Ölkəmizdə bir milyondan çox insan, - əziz xanımlar, bu dəhşətli rəqəmə fikir verin!, - öz evlərini tərk etməyə məcbur olub. O vaxt Azərbaycanın əhalisinin sayı 7 milyon idi. Deməli, orta hesabla ölkənin hər 7 vətəndaşından biri doğma evini itirmiş qaçqına və məcburi köçkünə çevrildi. Təxminən eyni sayda qaçqının əhalisi yarım milyard olan Avropaya gəlməsi son dərəcədə kəskin "miqrasiya böhranı"na təhrik edib, bu böhran ən yüksək səviyyədə müzakirə olunub. Azərbaycanda iri çadır düşərgələri yaradıldı, insanlar hətta yük vaqonlarında yerləşdirildi. Son illərdə Azərbaycanda qaçqınlar və məcburi köçkünlər üçün yeni şəhərciklər salınır. Bu yolla məişət şəraitini yaxşılaşdırmaq olar, lakin müharibədən və "etnik təmizləmələrdən" xilas olmaq üçün doğma evlərini tərk etməyə məcbur olmuş insanların qəlbindəki yaralarını sağaltmaq mümkün deyil. Onların probleminin həqiqi həlli öz evlərinə, bu gün erməni işğalı altında olan torpaqlara qayıtması ola bilər və olmalıdır.

Uşaqlıq dövrünü qaçqın və məcburi köçkün düşərgələrində keçirmiş uşaqların gözlərindəki ifadələri heç vaxt unutmaram. Onlar Dağlıq Qarabağ adlı bir diyarın olmasını yalnız yaşlı qohumlarının söhbətlərindən bilirlər. Hörmətli xanımlar, orada təbii gözəlliyin və müharibənin dəhşətli reallıqlarının təzadı sizi çox heyrətləndirib. Həmin diyarda təcavüz və işğal nəticəsində tarixi və mədəni abidələr, məscidlər, müqəddəs ziyarətgahlar, hətta qəbiristanlıqlar da vəhşicəsinə dağıdılıb. ATƏT-in bizim işğal olunmuş ərazilərə iki dəfə ezam edilmiş faktaraşdırıcı missiyası bu kədərli və XXI əsr üçün biabırçı faktı öz məruzələrində işıqlandırıb. İşğal olunmuş ərazilərdə 927 kitabxana, 85 musiqi məktəbi, o cümlədən "Şərqin konservatoriyası" adlanan Şuşada 4 rəsm qalereyası, 6 teatr, 22 muzey məhv edilib.

Son dərəcə qiymətli 40 min artefaktın taleyi məlum deyil. Azərbaycan mütəxəssislərinin hesablamalarına görə, qarət edilmiş və yandırılmış kitabxanalarda 4,6 milyon kitab və qiymətli əlyazma nəşrləri məhv edilib. Hitler hakimiyyətə gələndən sonra Almaniya şəhərlərinin küçələrində kitabların tonqallarda yandırılması təsvir edilən kinoxronika kadrlarını hamımız xatırlayırıq. Lakin indi həmin müharibədən və Nürnberq tribunalından təqribən yarım əsr sonra kitabları yandırıblar. Bu, bizim 1 milyondan çox həmvətənimiz üçün sadəcə xəbər sətirləri deyil, bu, şəxsi ağrı-acı duyğularıdır. Bu, həmin insanların uşaqlıq illərini keçirdikləri, indi dağıdılmış evlər, qarət edilmiş məktəblər, nəhayət, həmin insanların doğmalarının dəfn olunduqları, indi viran edilmiş qəbiristanlıqlardır. Bütün bunları xatırlamaq dözülməzdir, unutmaq isə qeyri-mümkündür. Bu, rəsmi məlumatlara daxil olmamış yüz minlərlə insanın şəxsi faciəsidir. Lakin onlar faciə olaraq qalır.

Nəhayət, Dağlıq Qarabağ münaqişəsinin tarixində ən qanlı və faciəli səhifələrdən biri Azərbaycanın Xocalı şəhərinin məhv edilməsi olub. Bu gün dünyanın 16 ölkəsinin parlamentləri, ABŞ-ın 24 ştatının qanunvericiləri Xocalının məhv edilməsini Azərbaycan xalqına qarşı soyqırımı aktı kimi rəsmən tanıyıblar. Bu şəhərin faciəsini Xatın, Liditse, Oradur faciələri ilə müqayisə etmək olar... Xocalıda 613 nəfər dinc sakin, o cümlədən 63 uşaq, 106 qadın, 70 ahıl insan qətlə yetirilib. Səkkiz ailə bütünlüklə məhv edilib, 27 ailənin hərəsindən yalnız 1 nəfər sağ qalıb. Xocalının məhv edilməsinin dəhşətli tarixini oxuyanda göz yaşlarını saxlamaq mümkün deyil.

Bütün bunları törədənlər hərbi canilər kimi damğalanmağa layiqdirlər.

Azərbaycan ərazisində bu vəhşi əməllərin müəllifləri və iştirakçıları Ermənistanda hələ yaxın vaxtlara qədər ali dövləti vəzifələr tuturdu. Lakin bu ilin baharında Yerevanda iğtişaşlar zamanı erməni xalqı özü onları süpürüb atdı.

Müasir Ermənistanda gedən siyasi dəyişikliklər ümid etməyə əsas verir ki, danışıqlar prosesi, nəhayət, "ölü nöqtə"dən tərpənəcək və münaqişənin həlli yolu danışıqlar masası arxasında tapılacaq. Ölkələrimizə indiki kövrək barışıq deyil, həqiqi sülh çoxdan lazımdır. Lakin sülhə nail olmaq üçün təkcə xoş niyyətlər və gəlişigözəl sözlər deyil, konkret addımlar lazımdır.

Hörmətli xanımlar.

Siz öz məktubunuzda yazmısınız ki, cəbhə xəttinin və ya təmas xəttinin ermənilər tərəfində olmusunuz. Lakin siz bu gün həmin cəbhə xəttinin haradan keçməsi barədə fikirləşmisinizmi? Bu, Azərbaycan ilə Ermənistanın dövlət sərhədi və hətta keçmiş DQMV-nin inzibati sərhədi də deyil. Cəbhə xətti Azərbaycan ərazisini, erməni əhalinin heç vaxt olmadığı torpaqları kəsib keçir. İcazə verin, soruşum: sizin dediyiniz "kamuflyajlı və silahlı oğlanlar" - erməni əsgərləri bu gün Azərbaycan torpağında nə edirlər? Nə üçün onlar əllərinə silah alıb Ağdamda, Füzulidə, Kəlbəcərdə, Zəngilanda, Qubadlıda dayanıblar? Onlar öz doğma Ermənistanından onlarca kilometr aralıda, Azərbaycan torpağında nə edirlər? Bunlar xoşagəlməz və kimlər üçünsə naqolay suallardır. Lakin bu suallara cavab verilmədən nə möhkəm sülh ola bilər, nə də səmərəli sülhyaratma təşəbbüsləri.

Bu gün sağlam düşüncəli hər bir insan üçün aydındır: işğala son qoyulmadan, qaçqın və məcburi köçkünlər öz yurdlarına qayıtmadan, beynəlxalq hüququn əsas prinsiplərinə riayət edilmədən münaqişənin real nizamlanmasını təsəvvür etmək mümkün deyil. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizamlanmalıdır. Erməni qoşunları Azərbaycan ərazilərini tərk edəndən, qaçqınlara və məcburi köçkünlərə çevrilmiş həmvətənlərimiz öz doğma yurdlarına qayıdandan sonra regionda möhkəm sülh yaranacaq. Dünya birliyi bizim ölkənin ərazi bütövlüyünü, qaçqınların və məcburi köçkünlərin öz yurdlarına qayıtmaq hüququnu tanıyır və Azərbaycanın işğal olunmuş torpaqlarından erməni qoşunlarının tezliklə və qeyd-şərtsiz çıxarılmasını tələb edir. 1993-cü il aprelin 30-da BMT Təhlükəsizlik Şurası Ermənistan tərəfindən ərazilərimizin işğal edilməsinə cavab olaraq 822 saylı qətnamə qəbul edib. Bu sənəddə işğalçı erməni qüvvələrinin Azərbaycan ərazisindən dərhal çıxarılması tələb edilib.

Sonra yenə 1993-cü il iyulun 29-da 853 saylı, oktyabrın 14-də 874 saylı, 1993-cü il noyabrın 12-də 884 saylı qətnamələr qəbul edilib. Hüquqşünasların təbirincə desək, zəruri hüquqi qüvvəyə malik olan həmin sənədləri BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvləri olan bütün ölkələr, o cümlədən Rusiya dəstəkləyib. Sonradan BMT Baş Assambleyası da oxşar qətnamə qəbul etdi. Bir sıra başqa nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti ... tərəfindən qəbul edilmiş qərar və qətnamələrdə Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi barədə müddəalar və münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində nizamlanması haqqında tələb təsbit olunub. Sülhə aparan yol budur, biz hamımız bu yolu keçməliyik.

Şübhəsiz, münaqişənin dinc yolla həllinin axtarışı kimi nəcib işdə belə adlandırılan "xalq diplomatiyası" və biganə qalmayan insanların sülhyaratma təşəbbüsləri də öz rolunu oynaya bilər. Bununla bərabər, həmin təşəbbüslər mövcud qanunvericilik normalarını nəzərə almalıdır. Mövcud beynəlxalq praktikaya tamamilə uyğun olan Azərbaycan qanunvericiliyinə görə yaradılmış mexanizm bu barədə Azərbaycanın hakimiyyət orqanlarına və ölkəmizin diplomatik missiyalarına vaxtında xəbərdarlıq etməklə işğal olunmuş Qarabağa səfər etməyə imkan verir. Azərbaycanın işğal olunmuş torpaqlarına ölkəmizin hakimiyyət orqanlarının icazəsi olmadan səfər edilməsi isə artıq qanun pozuntusu, Azərbaycanın sərhədlərinə və suverenliyinə hörmətsizlik hesab edilir. İşğal olunmuş Qarabağa rəsmi Bakının razılığı olmadan səfər edən şəxslər arzuedilməz şəxslərin siyahısına daxil edilir. Bu siyahını həm də "persona non qrata"lar siyahısı adlandırırlar. Belə şəxslərin Azərbaycan ərazisinə gəlməsi yolverilməzdir.

Eyni zamanda, çoxsaylı presedentlər yaranıb: bu siyahıya daxil edilmiş şəxslər, o cümlədən Rusiya vətəndaşları Azərbaycanın hakimiyyət orqanlarına müraciət edərək bildiriblər ki, onlar işğal olunmuş torpaqlarımıza rəsmi Bakının icazəsi olmadan səfər etməklə səhvə yol veriblər. Onlar, həmçinin Azərbaycanın ərazi bütövlüyünə, onun sərhədlərinə və suverenliyinə hörmət bəslədiklərini təsdiq ediblər, bundan sonra onların adları arzuedilməz şəxslər siyahısından çıxarılıb və onlar Azərbaycana gəlməyə icazə alıblar.

Əminəm ki, əgər siz ölkəmizin Rusiya Federasiyasındakı diplomatik missiyası vasitəsilə Azərbaycanın hakimiyyət orqanlarına bu cür müraciət göndərsəniz, sizin də məsələniz müsbət həll ediləcək. Bu halda biz sizin Azərbaycana səfəriniz üçün hər cür şərait yaratmağa hazır olacağıq".

# Azərbaycan hökuməti ilə USAID arasında əməkdaşlığın perspektivləri müzakirə olunub



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov dekabrın 14-də Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Avropa və Avrasiya bürosu üzrə administratorunun müavini Brok Birmanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Novruz Məmmədov Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında çox sıx əməkdaşlıq əlaqələrinin olduğunu bildirib. Azərbaycanın son illərdə əldə etdiyi nailiyyətlər barədə qonağa məlumat verən Baş nazir deyib: **“Bildiyiniz kimi, hazırda beynəlxalq münasibətlərdə müəyyən gərginliklər müşahidə olunur. Ancaq buna baxmayaraq, Azərbaycan müəyyənləşdirdiyi inkişaf yolu ilə inamla irəliləyir və demokratik tərəqqi xəttinə sadiqdir”.**

Azərbaycan hökuməti ilə USAID arasında da yaxşı münasibətlərin olduğunu qeyd edən Novruz Məmmədov bildirib ki, 1992-ci ildən qurulan bu əlaqələr müxtəlif sahələri əhatə edir. **“Hesab edirəm ki, ötən illər ərzində bizim kənd təsərrüfatı, səhiyyə, humanitar və digər sahələrdəki əməkdaşlığımız səmərəli olub. Biz bundan sonra da əməkdaşlığımızı konstruktiv əsaslarda davam etdirmək əzmindəyik”,** - deyə Baş nazir vurğulayıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə qonağa ətraflı məlumat verən Novruz Məmmədov BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi 4 qətnamənin hələ də yerinə yetirilmədiyini təəssüflə qeyd edib, ATƏT-in Minsk qrupunun həmsədri kimi Amerika Birləşmiş Ştatlarının bu münaqişənin sülh yolu ilə nizamlanması istiqamətindəki səylərinin bundan sonra da davam etdirilməsinin vacibliyini xüsusi vurğulayıb.

Görüşdə Brok Birman ölkəmizə səfəri müddətində keçirdiyi görüşlər barədə məlumat verib.

Söhbət zamanı Azərbaycan hökuməti ilə USAID arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

# Moskvada Azərbaycan-Rusiya iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının iclası keçirilib



Dekabrın 14-də Moskvada Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 17-ci iclası keçirilib. İclasda Dövlət Komissiyasının həmsədrləri - Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayevin və Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkinin rəhbərlik etdiyi nümayəndə heyətləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, komissiyanın iclasından əvvəl iqtisadiyyat naziri Şahin Mustafayev Rusiyanın iqtisadi inkişaf naziri Maksim Oreşkin ilə görüşüb. Görüşdə Azərbaycan-Rusiya iqtisadi-ticarət əlaqələrinə və əməkdaşlıq perspektivlərinə dair müzakirələr aparılıb.

Sonra Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 17-ci iclası öz işinə başlayıb.

İclasda İqtisadiyyat naziri, Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev qeyd edib ki, Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi və birgə səyləri nəticəsində ölkələrimiz arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və dövlət başçılarının qarşılıqlı səfərləri və müntəzəm görüşləri dövlətlərarası münasibətlərə yüksək dinamizm gətirir. Azərbaycan Respublikasının Prezidentinin bu ilin sentyabrında Rusiyaya səfəri zamanı 16 sənəd imzalanıb. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin bu ilin sentyabrında ölkəmizdə səfərdə olub və bu səfər çərçivəsində dövlət başçılarının iştirakı ilə 9-cu Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib.

Ticarət və qarşılıqlı investisiya qoyuluşlarının Azərbaycan-Rusiya əlaqələrinin mühüm istiqamətlərindən olduğunu qeyd edən nazir Şahin Mustafayev bildirib ki, Azərbaycan Rusiya iqtisadiyyatına 1 milyard dollardan çox, Rusiya isə Azərbaycana 4,2 milyard dollardan artıq investisiya qoyub. Azərbaycan Rusiyanın Şimali Qafqaz regionunda əsas investorlarından sayılır. Yessentukidə “İstoçnik” sanatoriya-turizm mərkəzi, Krasnodarda meyvə-tərəvəz konservləri istehsalı zavodu, Jeleznovodskda və Kislovodskda sanatoriya-mehmanxana kompleksinin tikintisi və digər layihələr Rusiyada Azərbaycan şirkətləri tərəfindən reallaşdırılan uğurlu layihələrdəndir. “SOCAR Polymer” layihəsi, Pirallahı Sənaye Parkında əczaçılıq müəssisəsinin yaradılması, Gəncə Avtomobil Zavodunun Rusiyanın “Kamaz” və “Ural” zavodları ilə əməkdaşlığı, “Azərmaş” və “QAZ” şirkətləri arasında birgə layihələrin reallaşdırılması qarşılıqlı investisiya qoyuluşu sahəsində önəmli layihələrdən sayılır.

Azərbaycanda təqribən 760 Rusiya kapitallı şirkət fəaliyyət göstərir. Rusiya şirkətləri Azərbaycanda həyata keçirilən layihələrdə podratçı qismində də iştirak edirlər.

Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və ticarət dövriyyəsinin həcmində müsbət artım dinamikası müşahidə edilir. Rusiya idxala görə Azərbaycanın əsas tərəfdaşdır, qeyri-neft məhsullarımızın ixracı üzrə isə birinci yerdədir. Azərbaycanın xaricdə ilk ticarət nümayəndəliyi məhz Rusiya Federasiyasında fəaliyyətə başlayıb. Bakıda Rusiya İxrac Mərkəzinin nümayəndəliyinin açılması, Moskvadakı Ümumrusiya Sərgi Mərkəzində yaradılan Azərbaycan pavilyonu iqtisadi-ticarət əlaqələrinin inkişafına əhəmiyyətli töhfələrdir. İxracın genişləndirilməsi, “Made in Azerbaijan” brendinin təşviqi məqsədilə Rusiyaya ixrac missiyaları təşkil edilir, Azərbaycan şirkətləri Rusiyada keçirilmiş önəmli sərgilərdə vahid ölkə stendi ilə təmsil olunur. Ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması məqsədilə Azərbaycan istehsalı olan aksizli malların ixracı üçün Azərbaycan-Rusiya sərhədində xüsusi gömrük postunun yaradılması istiqamətində işlər aparılır.



Nazir Şahin Mustafayev diqqətə çatdırıb ki, bu ilin mayında Həştərxanda Heydər Əliyev Fondunun dəstəyi ilə açılmış Azərbaycan İş Mərkəzi iqtisadi əlaqələrin genişlənməsində xüsusi əhəmiyyətə malikdir. Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuraları iş adamları arasında əməkdaşlığın inkişafında önəmli rol oynayır.

2019-cu ildə Azərbaycanın Moskvada 2 şərab evinin açılması nəzərdə tutulur. Növbəti mərhələdə Rusiyanın Yekaterinburq və Sankt-Peterburq şəhərlərində də Azərbaycan Şərab evlərinin açılması nəzərdə tutulur.

Nəqliyyat və tranzit yükdaşımaları sahəsinin ikitərəfli əməkdaşlığın uğurlu istiqamətlərindən olduğunu qeyd edən nazir Şahin Mustafayev “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizinin reallaşdırılan mühüm layihələrdən olduğunu, nəqliyyat dəhlizi vasitəsilə əvvəlki illə müqayisədə 100 dəfə çox yük daşındığını bildirib, Rusiya ilə birgə həyata keçirilən Samur sərhəd çayı üzərindən körpünün tikintisinin davam etdiyini diqqətə çatdırıb.

Nazir Şahin Mustafayev energetika, kənd təsərrüfatı, nəqliyyat, kiçik və orta sahibkarlıq, turizm, təhsil və digər sahələrdə də Azərbaycan-Rusiya əməkdaşlığına dair məlumat verib, Rusiya-Azərbaycan-İran enerji sistemlərinin birləşdirilməsinin əhəmiyyətini qeyd edib.

Bu ilin 9 ayında Azərbaycana gələn Rusiyalı turistlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 20 faiz artıb.

Təhsil sahəsində qarşılıqlı əməkdaşlıq uğurla inkişaf edir. Belə ki, Azərbaycanda M.Lomonosov adına Moskva Dövlət Universitetinin və İ.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları, təhsilin rus dilində aparıldığı və ya rus bölməsinin olduğu məktəblər və ali təhsil müəssisələri fəaliyyət göstərir. Rusiyanın müxtəlif ali təhsil müəssisələrində 11 mindən çox azərbaycanlı tələbə təhsil alır.

Regionlararası münasibətlərin ölkələrimiz arasında ikitərəfli əlaqələrin prioritet sahələrindən olduğunu vurğulayan nazir Şahin Mustafayev Azərbaycanın Rusiya Federasiyasının 80-ə yaxın federal subyekti ilə ticarət və iqtisadi əlaqələrinin olduğunu, Rusiya Federasiyasının təqribən 20 subyekti ilə ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq haqqında sazişlər imzalandığını bildirib.

Rusiya Federasiyasının iqtisadi inkişaf naziri, Dövlət Komissiyasının həmsədri Maksim Oreşkin Azərbaycan və Rusiyanın strateji tərəfdaşlar olduğunu, Azərbaycan və Rusiya prezidentlərinin ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsinə böyük önəm verdiklərini, yüksək səviyyəli intensiv qarşılıqlı səfərlərin bunun bariz nümunəsi olduğunu vurğulayıb. Rusiyanın iqtisadi inkişaf naziri 2018-ci ilin ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı baxımından uğurlu olduğunu və Rusiya-Azərbaycan əməkdaşlığının daha da genişlənəcəyinə əminliyini bildirib. Maksim Oreşkin bir sıra sahələrdə, o cümlədən ticarət və investisiya sahəsində iqtisadi əlaqələrin inkişafında müsbət dinamikanın olduğunu qeyd edərək, 2019-cu ildə ölkələrimiz arasında həyata keçirilməsi razılaşdırılmış əməkdaşlıq sahələri üzrə işlərin davam etdirilməsinin vacibliyini diqqətə çatdırıb.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 17-ci iclası çərçivəsində müxtəlif sahələrdə Azərbaycan-Rusiya əməkdaşlığına, ölkələrimiz arasında birgə həyata keçirilən layihələrə, iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsinə dair müzakirələr aparılıb, nümayəndə heyətlərində təmsil olunan rəsmi şəxslərin çıxışları dinlənilib.

İclasın sonunda Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 17-ci iclasının yekunlarına dair Protokol imzalanıb. Sənədi Komissiyanın həmsədrləri - Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayev və Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkin imzalayıblar. İclas çərçivəsində müzakirə olunmuş məsələlərin və komissiyanın gələcək fəaliyyət istiqamətlərinin əksini tapdığı sənəddə iqtisadi-ticarət, sənaye, kənd təsərrüfatı, nəqliyyat, İKT, turizm, humanitar, səhiyyə və s. sahələrdə əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

Dövlət Komissiyasının iclası çərçivəsində həmçinin, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və “İşgüzar Rusiya” təşkilatı arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

# Bakıda Parlamentlərarası İttifaqın Gənc Parlament Üzvlərinin 5-ci Qlobal Konfransı işə başlayıb







Dekabrın 14-də Bakıda Parlamentlərarası İttifaqın Gənc Parlament Üzvlərinin 5-ci Qlobal Konfransı işə başlayıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə 44 ölkədən 170 nümayəndə, o cümlədən parlament üzvləri, beynəlxalq təşkilatların təmsilçiləri iştirak edirlər.

Konfransın açılışında çıxış edən Milli Məclisin sədri Oqtay Əsədov əvvəlcə Parlamentlərarası İttifaqın bu mötəbər toplantısı münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriklərini və xoş arzularını iştirakçılara çatdırıb. Sədr deyib ki, ötən yüzilliyin sonlarında bəşəriyyətin mövcudluğunu qorxu altına alan qlobal təhlükələrin hamılıqla dərk edilməsi dünya sivilizasiyasının inkişafının xarakterini dəyişdirməyə yönələn beynəlxalq səylərin artmasına gətirib çıxarıb. Bu gün bir çox tədqiqatçılar dayanıqlı inkişaf prinsiplərinə keçidi sosial mühəndisliyin xüsusi bir metodu və “ekoloji politologiya” adlandırırlar. Söhbət qloballaşmanın və böhranlı halların mənfi nəticələrini aradan qaldırmağa yönələn siyasi fəaliyyətdən və ekoloji tarazlığa nail olmaq yolu ilə dayanıqlı və təhlükəsiz inkişafı təmin etməkdən gedir. Nəticə etibarilə, bütün bunlar indiki və gələcək nəsillər üçün daha etibarlı, ədalətli və humanist bir dünya qurulmasına gətirib çıxarmalıdır. **“Bu baxımdan inanıram ki, konfransın sessiyalarında aparılacaq fikir mübadilələri və müzakirələr dayanıqlı inkişafın təmin edilməsində gənclərin, xüsusən gənc parlament üzvlərinin rolunun gücləndirilməsi yollarını müəyyən etməyə imkan verəcək”,** - deyə o əlavə edib.

Oqtay Əsədov bildirib ki, dünya əhalisinin mühüm hissəsini təşkil edən gənclər ən dinamik sosial qrup olaraq dayanıqlı inkişaf məqsədlərinin əldə edilməsinə dəyərli töhfələr verə bilərlər. Çox böyük intellektual potensialın daşıyıcısı olan gənclər bir çox ölkələrin siyasi, iqtisadi və sosial strukturlarında önəmli yer tutaraq müasir cəmiyyətin mənəvi inkişafının mühüm amili kimi çıxış edirlər. Sivilizasiyalar arasında qarşılıqlı əlaqələrin gücləndiyi dövrdə gənclər müxtəlif mədəniyyətlərə xas dəyərləri və yeni ideyaları daha tez mənimsəyirlər. Bununla əlaqədar xüsusi qeyd edilməlidir ki, bəşər sivilizasiyasının inkişafının müasir mərhələsində milli eqoizm və müstəsnalıq düşüncəsinin aradan qaldırılması, müharibə və zorakılıq fəlsəfəsinin sülh və əməkdaşlıq fəlsəfəsi ilə əvəz edilməsi üçün obyektiv imkanlar yaranıb. Yeni dünya nizamının formalaşmasında məhz gənclər həlledici rol oynamalıdırlar.

Milli Məclisin sədri deyib ki, bu gün Azərbaycan Respublikasında gənclər sosial, humanitar, iqtisadi və siyasi fəaliyyətə yaxından cəlb olunurlar. Gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsini təşkil edir. Dövlətin yaratdığı geniş imkanlar sayəsində gənclər cəmiyyətin aparıcı qüvvəsinə çevriliblər.

Gənclərin Azərbaycan parlamentində də önəmli mövqelərə malik olduğunu söyləyən Milli Məclisin sədri bildirib ki, onlar qanunvericilik və qanunyaratma prosesi ilə bağlı gündəlik işlərlə yanaşı, beynəlxalq parlament təşkilatlarının fəaliyyətində də yaxından iştirak edirlər. Həmçinin Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzünün ağır nəticələri, ölkə ərazisinin 20 faizinin işğal edilməsi, 1 milyondan çox soydaşımızın doğma yurdlarından didərgin düşməsi barədə məlumatları xarici ölkələrdən olan həmkarlarına çatdırmaq üçün bütün vasitələrdən istifadə edirlər. **“Yeri gəlmişkən qeyd edim ki, beynəlxalq təşkilatlar bu münaqişəyə həsr olunmuş bütün qərarlarında Azərbaycan ərazilərinin işğalına son qoyulması zərurətinə istinad edirlər. 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində, eləcə də 2008-ci ildə BMT Baş Məclisinin qətnaməsində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilib. Bu sənədlərdə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı birmənalı şəkildə təsdiqlənib”,** - deyə parlament sədri vurğulayıb. O əlavə edib ki, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurasının Parlament Assambleyası, Avropa Parlamenti və İslam Əməkdaşlıq Təşkilatı kimi digər beynəlxalq təşkilatlar da oxşar qərar və qətnamələr qəbul ediblər. Sədr həm ölkəmizin, həm də bütövlükdə Cənubi Qafqaz bölgəsinin hərtərəfli inkişafına mane olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hamılıqla qəbul edilmiş beynəlxalq hüququn normaları və prinsipləri əsasında həll ediləcəyinə əminliyini bildirib.

Parlamentlərarası İttifaqın bu mötəbər toplantısının Bakıda keçirilməsinin ölkəmizin siyasi həyatında çox önəmli hadisə olduğunu diqqətə çatdıran sədr deyib: **“İnanıram ki, qlobal konfransda 4 qitəni, 44 ölkəni təmsil edən gənc parlament üzvləri Şərq və Qərb dünyaları arasında körpü rolunu oynayan Azərbaycan haqqında dolğun məlumat alacaq, müxtəlif mədəniyyətlərin vətəni olan ölkəmizdən xoş təəssüratlarla ayrılacaqlar”.**

Parlamentlərarası İttifaqın prezidenti Qabriela Kuevas Barron Bakının bu konfransa ev sahibliyi etməsinə görə Prezident İlham Əliyevə minnətdarlıq edib. O deyib ki, Azərbaycan gənclərlə bağlı və bu günün çağırışlarını qət etmək üçün yeni innovasiyalı həll yollarına dair təkliflər irəli sürür və onların həyata keçirilməsinə yaxşı şərait yaradır. Bu sahədə mövcud olan çağırışların aradan qaldırılması istiqamətində Azərbaycanda mühüm addımlar atılır.

Qabriela Kuevas Barron konfrans çərçivəsində aparılan müzakirələrin dünyadakı çağırışların dəf edilməsinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib. **“Bu gün dünyada gedən dəyişikliklər göstərir ki, bundan sonra torpaq, su, enerji resurslarına daha çox ehtiyac olacaq. Biz bilirik ki, iqlim dəyişikliyi nəticəsində qlobal temperatur 1,5 dərəcə artıb. Bu statistik məlumatları nəzərə almalı, ətraf mühitə yaranan təhdidlərin həyatımıza təsirlərini bilməliyik. Dünya əhalisi növbəti 40 il ərzində 60 faiz artacaq. Bu baxımdan ətraf mühitə olan təsirlər gələcəkdə vəziyyəti daha da çətinləşdirəcək, ərzaqla bağlı çətinliklər yaranacaq. Son bir neçə ildə altı milyard tona yaxın balıq ehtiyatı məhv olub. Buna görə də biz gələcəyimiz naminə seçimlərimizi doğru etməli, qərarlarımızı düzgün hesablamalıyıq”**, - deyə o bildirib.

Parlamentlərarası İttifaqın Gənclər Forumunun sədri Mourine Osoru deyib ki, qəbul edilən siyasi qərarların gənclərə təsir göstərməsi təmin edilməlidir. Çünki onlar cəmiyyətin aparıcı qüvvələridir. O bildirib ki, gənclər səylərini birləşdirməli, təcrübələrini bölüşərək qlobal səviyyədə səslərini eşitdirməlidirlər. **“Biz ikigünlük konfrans çərçivəsində gələcək addımlarımızı müəyyənləşdirməliyik. Dayanıqlılığın təşviqi, gələcək nəsillərin maraqlarının müdafiəsi mövzusunda keçirilən bu konfrans dialoq və məlumat mübadiləsi üçün yaxşı platformadır”,** - deyə o bildirib.

Gənclərin parlamentdə iştirakçılığının artırılmasının vacibliyini qeyd edən Mourine Osoru bildirib ki, onlar dayanıqlı qərarlar qəbul edə bilmələri üçün səlahiyyətləndirilməlidir.

Gənclər və idman naziri Azad Rəhimov çıxışında Azərbaycanın gənclər siyasəti, ölkəmizdə gənclərə göstərilən diqqət və qayğı barədə məlumat verib. Azərbaycanın gənc ölkə olduğunu söyləyən nazir deyib ki, bizim əhalinin 60 faizi 30 yaşdan aşağıdır. Bu isə əhalinin üçdəiki hissəsi deməkdir. Nazir bildirib ki, ölkəmizdə 2001-ci ildə gənclərlə bağlı qanun qəbul edilib, 2007-ci ildə ona düzəlişlər edilib. Bundan əvvəl isə 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradılıb. 1996-cı il fevralın 2-də ölkəmizdə ilk Gənclər Forumu keçirilib. 2011-ci ildə Prezident İlham Əliyevin Sərəncamı ilə Gənclər Fondu yaradılıb. 2015-ci ildən Milli Məclisdə Gənclər və idman komitəsi fəaliyyət göstərir.

Nazir qeyd edib ki, Azərbaycanın dövlət büdcəsindən gənclər sahəsinə ayrılan vəsait 2003-cü ildən indiyədək 100 dəfə artırılıb. Son 10 il ərzində 41 gənclər mərkəzi yaradılıb, ölkədə gənclərlə bağlılığı olan 300-dən çox qeyri-hökumət təşkilatı var. Gənc sahibkarlar dəstəklənir və onların öz bizneslərini yaratmalarına lazımi kömək göstərilir. Eyni zamanda, Azərbaycan dövləti 2007-ci ildən bu günə kimi dünyanın 100 universitetində 3600-dən çox tələbənin təhsil alması üçün maliyyə yardımı göstərib. Azərbaycan gəncləri Avropa Şurası, BMT, Avropa İttifaqı və 30-dan çox beynəlxalq, humanitar təşkilatda təmsil olunurlar.

Sonra birgə foto çəkdirilib.

Konfransın “Planetimizin gələcək üçün mühafizəsi: ətraf mühitin qorunmasında gənclərin rolu” mövzusunda birinci sessiyasında Təbiət Qanunu Fondunun prezidenti Toni Oposa “Danışıq vaxtı bitdi: gələcək nəsillər üçün iqlim ədaləti” adlı videomüraciətlə çıxış edib.

Konfrans panel müzakirələrlə davam edib.

Panel müzakirələrdə Boliviya parlamentinin deputatı, Parlamentlərarası İttifaqın Gənc Parlament Üzvlərinin idarə heyətinin üzvü Rut İtamari Betsaida Çok, “Təmiz Şəhər” ASC-nin idarə heyətinin sədri Etibar Abbasov, Zambiyanın Yaşıl Partiyasının baş katibi Daniel Siçilonqo mövzu ilə bağlı çıxış ediblər. Etibar Abbasov bildirib ki, tullantıların idarə olunması ətraf mühitin qorunmasında böyük rol oynayır. Azərbaycanda bu sahəyə xüsusi diqqət yetirilir. İnkişaf etmiş ölkələrdə il ərzində adambaşına düşən tullantıların miqdarı 400-500 kiloqram arasında dəyişir. Azərbaycanda isə bu, 350 kiloqramdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi polietilen paketlərin istifadəsinin azaldılması istiqamətində optimal variantlar axtarışındadır. Yaxın gələcəkdə həmin məhsulların məişətdə istifadəsinin tədricən azaldılması nəzərdə tutulur.

Panel iştirakçıları planetin ekoloji cəhətdən daha yaxşı qorunması ilə bağlı təkliflər irəli sürüblər.

“Paradiqmanın dəyişdirilməsi: gələcək nəsillər üçün davamlı istehlak və istehsal” mövzusunda ikinci sessiyada Kanadanın ətraf mühit və davamlı inkişaf üzrə komissarı Cudi Gelfandın videomüraciəti səslənib.

Panel müzakirələrdə Kosta-Rikanın deputatı Viales Villeqas, çinli deputat Zigang Yu, Ruandanın parlament üzvü Albert Ruhakana, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova mövzu ilə bağlı çıxış ediblər.

“Güclü gələcək: sabahın təhsili” mövzusunda üçüncü sessiyada fələstinli yazıçı, vəkil Çaker Xazzal məruzə ilə çıxış edib.

Müzakirələrdə UNESCO-nun nümayəndəsi Meirgul Alpisbayevanın, Küveytdən olan deputat Omar Altabtababeenin, ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin, Qazaxıstan parlamentinin üzvü Bəxtiyar Makenin və digərlərinin çıxışları dinlənilib.

Sonra gənc deputatlar Dayanıqlı İnkişaf Məqsədlərinin yerinə yetirilməsinə söz verərək and içiblər.

Toplantıda azərbaycanlı deputatlar Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində ekoloji mühitə külli miqdarda ziyan vurduğunu deyiblər. Eyni zamanda, Ermənistandakı Metsamor Atom Elektrik Stansiyasının region, bütövlükdə dünya üçün yaratdığı təhlükədən danışılıb.

Gənc deputatlar dünyada baş verən münaqişələrə, fəlakətlərə, müharibələrə son qoyulması üçün müxtəlif təkliflərlə çıxış ediblər.

Konfrans işini dekabrın 15-də davam etdirəcək.

# Müqəddəs Taxt-Tacın apostol nunsisi: Azərbaycan multikulturalizmi bütün dünyaya parlaq nümunədir



Dünyanın əksər ölkələrində insanlar islamofobiya, ksenofobiya ilə qarşılaşırlar. Azərbaycanda isə bütün dinlərə mənsub insanlar azad, rahat şəkildə yaşayırlar. Bu baxımdan Azərbaycan multikulturalizmi bütün dünyaya parlaq nümunədir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Müqəddəs Taxt-Tacın ölkəmizdəki apostol nunsisi arxiyepiskop Pol Fitzpatrik Rassel Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə ilə görüşündə deyib.

QMİ sədri Azərbaycanın çoxmillətli və çoxdinli ölkə olduğunu, ölkəmizin milli siyasətinin müxtəlif millətlərin, etnik qrupların, dini azlıqların birgə yanaşı yaşaması, dözümlülük prinsipləri əsasında müəyyənləşdirildiyini söyləyib. O, Azərbaycanda tarixən heç vaxt milli və dini zəmində ayrı-seçkilik, qarşıdurma baş vermədiyini, qarşılıqlı etimada, hörmətə əsaslanan mütərəqqi milli-mədəni, həmçinin dini münasibətlər mövcud olduğunu qeyd edib.

Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında səmimi dostluq münasibətlərinin mövcudluğunu qeyd edən Allahşükür Paşazadə bunun Prezident İlham Əliyevin qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində gördüyü işlərin nəticəsi olduğunu bildirib.

Şeyxülislam deyib ki, millətləri və dinləri bir-birinə daha yaxın edən mühüm siyasi təşəbbüslərdən başqa, Azərbaycan dünyanın ayrı-ayrı yerlərində müxtəlif humanitar və xeyriyyə layihələri həyata keçirir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə İtaliyada bir çox tarixi abidələrin bərpasını buna bariz nümunə kimi göstərmək olar.

# Bakıda QDİƏT Xarici İşlər Nazirləri Şurasının 39-cu iclası keçirilib



Dekabrın 14-də Bakıda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Xarici İşlər Nazirləri Şurasının 39-cu iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın sədrliyi ilə keçirilən iclasda təşkilata üzv ölkələrin yüksək səviyyəli rəsmilərinin rəhbərlik etdiyi nümayəndə heyətləri iştirak ediblər.

İclasa sədrlik edən Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov deyib ki, "Bağlantılar vasitəsilə ticarətin gücləndirilməsi" şüarı ilə Azərbaycanın QDİƏT sədrliyi regional bağlantı məsələlərinə diqqət ayırıb. O əminliyini bildirib ki, Xarici İşlər Nazirləri Şurasının 39-cu iclası fikir mübadiləsi aparmaq, təşkilat daxilində əməkdaşlığın cari vəziyyətini və növbəti birgə səylərimizin perspektivlərini müzakirə etmək üçün yaxşı imkan olacaq.

Nazir qeyd edib ki, Azərbaycan müstəqilliyinin ilk illərindən regionda daxili bağlantının qurulmasına güclü dəstək verib. Son iki onillik ərzində Azərbaycan regional iqtisadi əlaqələri möhkəmləndirməyi hədəfləmiş enerji (Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Supsa, Cənub Qaz Dəhlizi: TANAP, TAP), nəqliyyat (Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri, Bakı-Tbilisi-Qars, Ələtdə yeni Bakı Beynəlxalq Dəniz Limanı) və İKT (TASIM) sahələrində bir sıra regional meqalayihələr təşəbbüsü ilə çıxış edib, əksəriyyətini həyata keçirib.

Azərbaycanın sədrliyi təşkilatımız çərçivəsində bağlantı məsələsinə xüsusi diqqət ayırıb. QDİƏT regionunda və onun hüdudlarından kənarda inkişafa və ticarət axınlarının genişlənməsinə daha da töhfə vermək məqsədilə Bakı İKT və nəqliyyat üzrə nazirlərin iki iclası da daxil olmaqla müxtəlif səviyyələrdə bir sıra görüşlər təşkil edib.

**"Sədrlik prioritetlərimizə uyğun olaraq Azərbaycan, həmçinin təşkilatımız çərçivəsində əməkdaşlığın səmərəliliyinin artırılması məqsədini güdən islahatlar prosesi istiqamətində səylər göstərib. Bu xüsusda, inanırıq ki, bu səylər növbəti sədrlik tərəfindən dəstəklənəcək və QDİƏT-in Daimi Beynəlxalq Katibliyi tərəfindən bu yaxınlarda hazırlanmış analiz sənədi bizə bu istiqamətdə kömək edəcək",** - deyə o bildirib.

Nazir vurğulayıb ki, Azərbaycan Qara dəniz regionunun gələcək rifahına qətiyyətlə inanır və bu gələcəyin yalnız yaxşı qonşuluq, qarşılıqlı hörmət, humanizm və tolerantlıq əsasında qurulmasından heç bir şübhəsi yoxdur. Regional əməkdaşlıq üçün, xüsusilə də QDİƏT məkanında, ən böyük maneələr həll olunmamış münaqişələrdir. Azərbaycan və Ermənistan üçün bu, Dağlıq Qarabağ münaqişəsidir. Azərbaycan torpaqlarının hərbi işğalı həll yolu deyil və heç vaxt Ermənistanın istədiyi siyasi nəticəni verməyəcək. Azərbaycanın əsas mövqeyi QDİƏT nizamnaməsində də təsdiq edilən beynəlxalq hüququn norma və prinsiplərinə, xüsusilə də dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyinə və ərazi bütövlüyünə əsaslanır. Hələ də davam edən işğalçılıq və özünütəcrid siyasəti Ermənistanı regionda iqtisadi artım və ticarət potensialından məhrum edir. Bu, həmçinin bir-birimizin suverenliyinə və ərazi bütövlüyünə tam hörmət etməklə ümumi regional ticarət qurmaq səylərimizə xələl gətirir. Ümid edirik ki, bu ölkənin xalqının mandatına əsasən Ermənistanda yeni bir hökumət formalaşdıqda gələn il irəliləyiş əldə etməliyik və bölgəyə sülh, sabitlik və tərəqqi gətirmək üçün yaxşı imkan yaratmalıyıq.

Elmar Məmmədyarov vurğulayıb ki, Azərbaycan QDİƏT-in səmərəliliyinin artırılması prosesinə sadiq qalır.

Qeyd edək ki, Azərbaycanın 2018-ci il iyulun 1-dən dekabrın 31-dək QDİƏT-də sədrliyi "Bağlantılar vasitəsilə ticarətin gücləndirilməsi" şüarı altında həyata keçirilir. Azərbaycanın sədrliyinin əsas prioritetləri sırasında QDİƏT məkanında səmərəli, etibarlı və təhlükəsiz nəqliyyat və tranzit xidmətlərinin göstərilməsi, kənd təsərrüfatının ixrac qabiliyyətinin artırılması və turizmin daha da inkişaf etdirilməsi xüsusi yer tutur.

Azərbaycandan sonra QDİƏT-ə sədrlik Bolqarıstana keçəcək.

# Baş katib Maykl Kristides: QDİƏT-ə sədrliyi dövründə əldə edilən irəliləyişlərə görə Azərbaycana təşəkkürümü bildirirəm




Azərbaycanın Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına altı aylıq sədrliyi müddətində QDİƏT məkanında təhlükəsiz, səmərəli nəqliyyat-tranzit xidmətlərinin göstərilməsi, kənd təsərrüfatının ixrac qabiliyyətinin artırılması və turizmin daha da inkişaf etdirilməsi ilə bağlı səmərəli müzakirələr aparılıb.

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycanın xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev dekabrın 14-də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Maykl Kristides və Bolqarıstanın xarici işlər nazirinin müavini Emiliya Kralyova ilə birgə keçirdiyi mətbuat konfransında deyib.

Nazir müavini qeyd edib ki, QDİƏT bundan sonra da fəallıq nümayiş etdirməli, Avropa İttifaqı səviyyəsinə çatmalıdır. O, bu işin çətin olduğunu deyərək bununla bağlı işçi qrupun Avropa İttifaqı ilə əməkdaşlıq şəraitində çalışdığını bildirib. Nazir müavini bu əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyətini qeyd edib.

Mahmud Məmməd-Quliyev vurğulayıb ki, QDİƏT çərçivəsində islahatlar aparılmalı, konkret prioritetlər müəyyənləşdirilməlidir.

Baş katib Maykl Kristides qeyd edib ki, 26 ildir fəaliyyət göstərən QDİƏT çərçivəsində dövlətlərarası əməkdaşlıq inkişaf etdirilir. Bu gün QDİƏT daha geniş sahədə fəaliyyət göstərir. Nəqliyyat, ticarət, cinayətkarlıqla birgə mübarizə, səhiyyə, kənd təsərrüfatı və başqa sahələrdə əməkdaşlıq inkişaf edir. **"Azərbaycana təşəkkür edirəm ki, altı aylıq sədrlik dövründə bir sıra irəliləyişlər əldə etdi. Əminəm ki, bundan sonra da irəliləyişlərə nail olacağıq",** - deyə o əlavə edib.

QDİƏT-ə növbəti müddətdə sədrlik edəcək Bolqarıstanın xarici işlər nazirinin müavini Emiliya Kralyova qeyd edib ki, ölkəsi regional əməkdaşlığa böyük önəm verir. QDİƏT əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanlar yaradır. O bildirib ki, QDİƏT Avropa İttifaqı ilə əməkdaşlığını gücləndirəcək. Bolqarıstanın təşkilata sədrliyi dövründə bu məsələyə diqqət artırılacaq. Nazir müavini vurğulayıb ki, qarşıdakı dövr ərzində enerji, nəqliyyat, ticarət, kənd təsərrüfatı, mədəniyyət və digər sahələrdə əlaqələr daha da inkişaf etdiriləcək.

# Bakı Dövlət Universitetinin hüquq fakültəsinin 90 illik yubileyi təntənəli şəkildə qeyd edilib







Dekabrın 14-də Bakı Dövlət Universitetində (BDU) bu ali məktəbin hüquq fakültəsinin yaranmasının 90 illiyinə həsr edilmiş "Azərbaycan Respublikasının beynəlxalq cəmiyyətə inteqrasiyası və hüquqi dövlət quruculuğunda hüquq elminin müasir inkişaf tendensiyaları" mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət qurumlarının rəsmiləri, deputatlar, tanınmış hüquqşünas alimlər, hakimlər, vəkillər, hüquq fakültəsinin məzunları, professor və müəllimlər, tələbələr iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Bakı Dövlət Universitetinin rektoru vəzifəsini icra edən, professor İradə Əliyeva konfransda çıxış edərək Ümummilli lider Heydər Əliyevin elmə, təhsilə daim xüsusi önəm verdiyini, Ulu öndərin ideyalarının Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini bildirib.

Professor İ.Əliyeva Prezident İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illik yubileyi haqqında Sərəncamına uyğun olaraq müxtəlif tədbirlərin keçirilməsindən, o cümlədən 90 illiyi qeyd olunan hüquq fakültəsinin respublikada hüquq elminin inkişafında və hüquq üzrə elmi-pedaqoji kadrların hazırlanmasında xüsusi rolundan bəhs edib.

Hüquq fakültənin fəaliyyəti barədə məlumat verən professor fakültədə təhsilin inkişafı istiqamətində həyata keçirilən tədbirləri, qazanılan uğurları diqqətə çatdırıb.

Hüquq fakültəsinin dekanı, professor Əmir Əliyev "Hüquq fakültəsinin tarixi, inkişaf yolu və müasir cəmiyyətdə rolu" mövzusunda məruzə ilə çıxış edib. Alim hüquq fakültəsinin BDU-nun aparıcı, nüfuzlu və ən böyük fakültələrindən biri olduğunu, onun tarixinin universitetin yarandığı ilk illərə təsadüf etdiyini vurğulayıb. Dekan qeyd edib ki, bu fakültənin açılmasının zəruriliyi Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qəbul etdiyi "Bakı şəhərində dövlət universitetinin təsis edilməsi haqqında" 1919-cu il 1 sentyabr tarixli Qanunda da öz əksini tapıb. O, Ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsindən sonra hüquq fakültəsində mühüm dəyişikliklərin, yeniliklərin əsasının qoyulduğunu, məhz həmin dövrdən başlayaraq hüquq elmi və təhsilini tədris edən alimlər sırasına azərbaycanlıların cəlb edilməsi prosesinin sürətləndiyini, Azərbaycanda beynəlxalq hüquq məktəbinin qurulduğunu diqqətə çatdırıb. Bildirilib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra da hüquq fakültəsinin inkişafı Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən aparılan məqsədyönlü uğurlu daxili və xarici siyasətin tərkib hissəsi kimi elm və təhsil sahəsindəki nailiyyətlər hüquq fakültəsində də müvəffəqiyyətlə davam etdirilir.

Dekan fakültənin tarixindən və inkişaf mərhələlərindən söz açıb. Qeyd olunub ki, hazırda hüquq fakültəsində 25-dən çox hüquq üzrə elmlər doktoru, professor və 100-ə yaxın hüquq üzrə fəlsəfə doktoru, dosent olmaqla ümumilikdə 120-dən artıq professor-müəllim fəaliyyət göstərir. Hüquq ixtisası üzrə Avropa, ABŞ, Türkiyə və digər xarici dövlətlərdə təhsil almış azərbaycanlı məzunlar bu gün hüquq fakültəsinin müvafiq magistraturalarında və ingilis bölmələrində tədris prosesini uğurla aparırlar. Təhsil bakalavr, magistratura və ikipilləli doktorantura sistemində Azərbaycan, ingilis, alman və rus dillərində davam etdirilir. Fakültədə əyani şöbədə 1161, qiyabi şöbədə 374, magistraturada isə 180 tələbə təhsil alır. Hüquq fakültəsində bakalavr təhsil səviyyəsində bir ixtisas - Hüquqşünaslıq ixtisası üzrə 83 fənn, magistratura təhsil pilləsində isə 17 ixtisaslaşma üzrə 250-dən artıq fənn tədris olunur. Artıq beşinci ildir ki, hüquq fakültəsində daimi Dissertasiya Şurası fəaliyyət göstərir. Həmçinin burada Tələbə Elmi Cəmiyyəti, Tələbə Həmkarlar Təşkilatı və Tələbə Gənclər Təşkilatı yaradılıb. Bundan başqa, fakültədə 11 kafedra, Hüquq Klinikası, Kriminalistika Laboratoriyası və Dəniz və Enerji Hüququ Mərkəzi uğurla fəaliyyət göstərir. "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrası Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın UNESCO və digər beynəlxalq təşkilatlarda apardığı uğurlu fəaliyyətin məntiqi nəticəsi olaraq 2015-ci ildə UNESCO ilə imzalanmış Sazişə əsasən yaradılıb.

Hüquq fakültəsi ABŞ, Almaniya, Rusiya, Türkiyə, Ukrayna, Gürcüstan, Qazaxıstan və digər ölkələrin nüfuzlu elm, təhsil ocaqları ilə geniş elmi əlaqələr qurub.

Tədbirdə çıxış edən Milli Məclis sədrinin birinci müavini, professor Ziyafət Əsgərov Ümummilli lider Heydər Əliyevin ölkəmizdə hüquq elminin və təhsilinin inkişafına daim xüsusi əhəmiyyət verdiyini vurğulayıb.

Bakı Dövlət Universitetinin hüquq fakültəsinin şanlı, şərəfli yol keçdiyini qeyd edən Z.Əsgərov bildirib ki, hazırda bu fakültə dünyanın nüfuzlu universitetlərinin hüquq fakültələri ilə səmərəli əməkdaşlıq edir. Fakültədə elmi potensial ən müasir tələblərə cavab verir. Biz bu gün Azərbaycanda hüquq elminin və təhsilinin inkişafı ilə fəxr edə bilərik.

Universitetin professor və müəllimlərini, tələbələrini təbrik edən Milli Məclis sədrinin birinci müavini onlara təhsildə yeni uğurlar arzulayıb.

Konstitusiya Məhkəməsinin sədri, hüquq elmləri doktoru Fərhad Abdullayev bu ilin ölkəmizin həyatında əlamətdar hadisələrlə zəngin olduğunu bildirib.

Prezident İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" və 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi barədə imzaladığı sərəncamların əhəmiyyətini diqqətə çatdıran F.Abdullayev qeyd edib ki, dövlətçilik tariximizin ən parlaq səhifələrindən biri - müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi geniş şəkildə qeyd edilir.

Şərqdə dünyəvi təhsil ocağı kimi yaradılan Bakı Dövlət Universitetinin inkişafına Ulu öndər Heydər Əliyevin daim xüsusi önəm verdiyini, dahi rəhbərin ideyalarının Prezident İlham Əliyev tərəfindən əzmlə həyata keçirildiyini bildirən Konstitusiya Məhkəməsinin sədri bu gün BDU-nun, o cümlədən universitetin hüquq fakültəsinin elmə, təhsilə, cəmiyyətə böyük töhfələr verdiyini vurğulayıb. O, 1995-ci ildə Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə ilk milli Konstitusiyanın hazırlandığını və həmin il noyabrın 12-də referendum yolu ilə Azərbaycan xalqı tərəfindən qəbul edildiyini xatırladıb. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə Konstitusiya Məhkəməsinin fəaliyyətə başladığını deyən sədr bu qurum ilə BDU-nun hüquq fakültəsi arasındakı əməkdaşlığın əhəmiyyətindən danışıb. O, hüquq fakültəsində yüksəkixtisaslı, peşəkar hüquqşünas kadrların hazırlanmasının əhəmiyyətini qeyd edib.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Elmira Süleymanova çıxış edərək hüquq elminin inkişafında və yüksəkixtisaslı hüquqşünas mütəxəssislərin hazırlanmasında hüquq fakültəsinin fəaliyyətini yüksək dəyərləndirib, müəllim və tələbələri təbrik edib.

Tədbirdə Polis Akademiyasının rəisi, general-leytenant Nazim Əliyev, Ankara Dövlət Universitetinin hüquq fakültəsinin dekanı, professor Muharram Özen, Kazan Federal Universitetinin hüquq fakültəsinin dekanı, professor Liliya Bakulina, Ukrayna hüquqşünasları adından akademik Oleq Zayçuk, Tbilisi Dövlət Universitetinin hüquq fakültəsinin dekanı, professor Tamar Zarandiya çıxış edərək fikirlərini bölüşüblər.

Sonra Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Baş Prokurorluğu, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və digər dövlət orqanlarının, ayrı-ayrı ali təhsil müəssisələri rəhbərlərinin təbrik məktubları səsləndirilib.

ABŞ-ın Tüleyn Universitetinin hüquq fakültəsinin dekanı, professor Devid Meyer, Almaniyanın Halle Vittnberq Universitetinin rektoru, professor Kristian Titye, Vürzburq Universitetinin hüquq fakültəsinin dekanı, professor Ekhard Paxen, Qazaxıstanın Əl-Fərabi adına Milli Universitetinin hüquq fakültəsinin dekanı Daulet Baydeldinovun videotəbrikləri nümayiş etdirilib.

Konfransda hüquq fakültəsinin bir qrup professor-müəllim heyətinə Təhsil Nazirliyinin "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı, fəxri fərmanı, Bakı Dövlət Universitetinin fəxri fərmanı təqdim edilib.

Sonra konfrans işini bölmə iclaslarında davam etdirib. Almaniya, Türkiyə, Rusiya, Ukrayna, Gürcüstandan 15-dən çox xarici hüquqşünas alimin iştirak etdiyi iclaslarda altı bölmə üzrə 180-dən çox məruzə dinlənilib.

# Bakıda informasiya təhlükəsizliyinin aktual problemlərinə dair konfrans keçirilib

Dekabrın 14-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin və İnformasiya Texnologiyaları İnstitutunun birgə təşkilatçılığı ilə "İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi-praktik problemləri" IV respublika konfransı keçirilib.

Tədbirdə ölkənin müvafiq dövlət qurumları, ali təhsil müəssisələri və AMEA-nın elmi-tədqiqat institutlarının informasiya texnologiyaları (İT) sahəsi üzrə tədqiqatçıları və mütəxəssisləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik Akif Əlizadə qlobal informasiya cəmiyyətinin ən aktual elmi problemlərindən biri olan və multidissiplinar xarakter daşıyan informasiya təhlükəsizliyi üzrə konfransın böyük əhəmiyyətə malik olduğunu söyləyib.











**"İnformasiya cəmiyyətinin uğurlu, dayanıqlı inkişafının təmin edilməsi informasiya təhlükəsizliyinin təmin olunması səviyyəsindən birbaşa asılıdır",** - deyən AMEA-nın prezidenti qeyd edib ki, müasir dünyada rəqəmsallaşdırma və virtual münasibətlər genişləndikcə informasiya təhlükəsizliyinin rolu da artmaqdadır. İnformasiya təhlükəsizliyinin milli təhlükəsizlik sisteminin ən mühüm istiqamətlərindən birinə çevrildiyini vurğulayan alim bildirib ki, bu gün informasiya təhlükəsizliyinin kompleks təminatı həyata keçirilmədən milli suverenliyin qorunması, beynəlxalq terrorizm, kibercinayətkarlıq, kriminal iqtisadiyyatla mübarizə, şəxsi həyatın toxunulmazlığının təmin edilməsi kimi problemlərin uğurlu həlli mümkün deyil.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə informasiya cəmiyyəti quruculuğu prosesinin uğurla həyata keçirildiyini söyləyən A.Əlizadə ölkəmizin informasiya cəmiyyəti, onun mühüm istiqamətləri olan genişzolaqlı internet, eləcə də elektron dövlətin inkişaf tempinə görə dünyada layiqli mövqelərdən birini tutduğunu diqqətə çatdırıb. Qeyd edib ki, bu inkişaf prosesləri ölkəmizdə informasiya təhlükəsizliyinin təmin olunmasının da aktuallığını artırır.

**"Son illər ölkəmizdə informasiya təhlükəsizliyinin gücləndirilməsi məqsədilə qanunvericilik, infrastruktur, kadr hazırlığı, maarifləndirmə və s. istiqamətlərdə mühüm işlər görülməkdədir",** - deyən A.Əlizadə bu məqsədlə "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanunun qəbul edildiyini, Azərbaycan Respublikasının İnformasiya Təhlükəsizliyi üzrə Milli Strategiyanın layihəsinin işlənib hazırlandığını və digər işlərin həyata keçirildiyini bildirib.

Alim qeyd edib ki, bununla yanaşı, xarici ölkələrdən texnoloji asılılığın aradan qaldırılması üçün yüksəkixtisaslı kadrların yetişdirilməsi, İKT sənayesinin, o cümlədən proqram mühəndisliyi sənayesinin formalaşdırılması, informasiya təhlükəsizliyi üzrə gənc kadrların yetişdirilməsi vacib məsələlərdəndir.

A.Əlizadə AMEA-da informasiya təhlükəsizliyi üzrə yüksəkixtisaslı elmi kadrların hazırlanması işlərinin həyata keçirildiyini, İnformasiya Texnologiyaları İnstitutunda informasiya təhlükəsizliyinin dövlət maraqları baxımından böyük əhəmiyyət kəsb edən bir sıra aktual istiqamətləri üzrə elmi tədqiqatların aparıldığını, dissertasiya işlərinin yerinə yetirildiyini diqqətə çatdırıb. Həmçinin qeyd edib ki, AMEA-nın elmi müəssisə və təşkilatlarına yüksək səviyyədə internet xidmətləri göstərməklə Azərbaycan elminin dünya elminə inteqrasiyasını təmin edən, elm və təhsil şəbəkələri üzrə milli operator olan "AzScienceNet" elm-kompüter şəbəkəsinin fəaliyyətinin əsas istiqamətlərindən biri də məhz informasiya təhlükəsizliyi ilə bağlıdır.

AMEA-nın rəhbəri ölkəmizin informasiya təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi və inkişafı üçün bu kimi elmi-nəzəri konfransların və ictimai müzakirələrin keçirilməsinin vacib olduğunu söyləyərək, artıq ənənə halını almış bu konfransın gələcəkdə beynəlxalq səviyyəli elmi toplantıya çevrilməsinin zəruriliyini vurğulayıb.

Konfransda Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov, Dövlət Gömrük Komitəsi sədrinin müavini, general-mayor, texnika elmləri doktoru İqbal Babayev, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz, İdarəetmə Sistemləri İnstitutunun direktoru, akademik Telman Əliyev, AMEA-nın akademik-katibi, İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev çıxış edərək bu kimi tədbirlərin keçirilməsinin informasiya təhlükəsizliyinin aktual problemlərinin müzakirəsi baxımından böyük imkanlara malik olduğunu söyləyiblər.

Daha sonra konfrans işini plenar iclasla davam etdirib. İclasda akademik Rasim Əliquliyev "İnformasiya təhlükəsizliyi milli təhlükəsizliyin əsas komponenti kimi" mövzusunda məruzə ilə çıxış edərək, informasiya təhlükəsizliyinin təmini məsələlərinin hər bir dövlətin milli təhlükəsizliyinin əsas komponentlərindən biri kimi strateji əhəmiyyət kəsb etdiyini bildirib.

Alim informasiya və kommunikasiya sistemlərinə təhdidlər, elektron resursların qorunması və rəqəmsal irsin formalaşdırılması, internet mühitində uşaqların mühafizəsi ilə bağlı mövcud problemlərdən söz açıb.

R.Əliquliyev, həmçinin texnoloji sistemlərin kiberfiziki təhlükəsizliyi, milli proqram sənayesi və informasiya təhlükəsizliyi məsələlərindən bəhs edib, milli veb-resursların statistik-analitik mexanizmlərinin işlənilməsinin zəruriliyini vurğulayıb. Bildirib ki, hazırda veb-resursların vəziyyəti haqqında statistik məlumatların xarici operatorlar tərəfindən toplanması və analiz olunması, milli veb-resursların statistik və analitik təminat mərkəzləri və servislərinin yaradılması zərurəti bu istiqamətlərdə elmi araşdırmaların aparılmasını, milli və beynəlxalq tələblərə cavab verən statistik mexanizmlərin işlənilməsinin əhəmiyyətini önə çəkir.

R.Əliquliyev milli antivirus, antispam və antiplagiat sistemlərinin konseptual əsasları barədə də məlumat verərək, informasiya təhlükəsizliyi və sosiohumanitar elmlərin qarşılıqlı əlaqəsindən danışıb. Qeyd edib ki, sosiohumanitar elmlər informasiya təhlükəsizliyinin qarşısında duran vəzifələrin həllində, eləcə də informasiya təhlükəsizliyi sosiohumanitar elmlərin problemlərinin həllində xüsusi rol oynaya bilər.

Alim, eləcə də informasiya təhlükəsizliyinin normativ hüquqi bazasının inkişafı ilə əlaqədar təkliflərini səsləndirib. Onun sözlərinə görə, bu məqsədlə pilotsuz uçuş aparatlarına dair, eyni zamanda, inkişaf etmiş ölkələrin təcrübəsi nəzərə alınmaqla beynəlxalq öhdəliklərdən irəli gələn qanunlar qəbul edilməli, normativ hüquqi sənədlərin praktikada geniş tətbiqi üçün kompleks tədbirlər görülməli, informasiya hüquqi sahəsində kadr hazırlığı və elmi araşdırmalar həyata keçirilməlidir.

**"Azərbaycan dilinin qorunması milli informasiya təhlükəsizliyi problemidir",** - deyə bildirən R.Əliquliyev e-milli dövlətin arxitektur əsaslarından danışıb. Bildirib ki, buraya milli terminologiya sistemi, milli orfoqrafiya-orfoepiya sistemi, transliterasiya sistemi, kompüter tərcüməsi sistemləri, milli lüğətlər, dialektoloji sistem, dil biliklərinin tədrisi və qiymətləndirilməsi sistemləri, milli adlar sistemi, linqvistik təhlükəsizlik sistemi, azsaylı xalqların dil resursları və sistemləri, işarə dili resursları və sistemləri, mətn mühəndisliyi və s. daxildir.

Sonra İnformasiya Texnologiyaları İnstitutunun texnologiyalar üzrə direktor müavini, texnika üzrə fəlsəfə doktoru, dosent Rəşid Ələkbərov "AzScienceNet elm kompüter şəbəkəsinin informasiya təhlükəsizliyi məsələləri" mövzusunda məruzə ilə çıxış edib. O, "AzScienceNet" şəbəkəsinin infrastrukturu, istifadə siyasəti, şəbəkənin Data Mərkəzinin texniki imkanları, şəbəkənin GEANT şəbəkə infrastrukturuna inteqrasiyası, Azərbaycan Təhsil Şəbəkəsi ilə əməkdaşlıq, informasiya təhlükəsizliyinin təmin olunması üçün görülmüş işlər, şəbəkədən istifadə zamanı yolverilməz əməllər, istifadəçilərə nəzarət və xəbərdarlıq, təhlükəsizlik hadisələrinin yaranma səbəbləri haqqında ətraflı məlumat verib.

R.Ələkbərov şəbəkədə informasiya təhlükəsizliyi siyasətinin məqsəd və vəzifələrindən söz açaraq bildirib ki, informasiya təhlükəsizliyinə təhdidlərin AMEA-nın şəbəkələrinə və informasiya resurslarına vura biləcəyi maddi və mənəvi ziyanın minimumlaşdırılması, AMEA-nın işgüzar nüfuzunun yüksəldilməsi, informasiya təhlükəsizliyi üçün vahid prinsiplərin formalaşdırılması, informasiya təhlükəsizliyi sisteminin yaradılması, fəaliyyəti və inkişafı üçün müvafiq təşkilati-metodiki bazanın formalaşdırılması əsas məqsəd və vəzifələrdəndir.

Məruzəçi, həmçinin "AzScience-CERT", "AzScienceNet"in monitorinq və informasiya təhlükəsizliyi xidməti və bu xidmətin təşkili üçün istifadə olunan proqram təminatları və avadanlıq, Verilənlərin Emalı Mərkəzinin avadanlığın etibarlılığının artırılması, informasiya təhlükəsizliyi üzrə fəaliyyətin genişləndirilməsi və təkmilləşdirilməsi ilə bağlı görülən işləri nəzərə çatdırıb.

Daha sonra institutun şöbə müdiri, AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru Ramiz Alıquliyev "Elektron dövlətdə milli təhlükəsizliyə bəzi təhdidlərin aşkarlanması metodları haqqında" mövzusunda məruzə ilə çıxış edərək, elektron dövlət mühitində terrorizmi təbliğ edən mətnlərin filtrasiyasına dair yanaşma, təhdidlərin qiymətləndirilməsi üçün qeyri-səlis model, e-dövlət mühitində toplanmış məlumatlardan anomaliyaların aşkarlanması üçün metodun təklif olunduğunu bildirib. Həmin metod və modellər haqqında ətraflı məlumat verən alim qeyd edib ki, bu metodların digər məlum metodlarla müqayisəsi aparılıb, eksperimental nəticələr yeni yanaşma və metodların effektivliyini sübut edib.

Daha sonra konfrans işini "İnformasiya təhlükəsizliyinin elmi-nəzəri problemləri", "İnformasiya təhlükəsizliyinin humanitar problemləri" və "İnformasiya təhlükəsizliyinin praktiki problemləri" bölmələri üzrə davam etdirib.

İclaslarda "E-dövlət mühitində sosial münasibətlərin təhlükəsizliyi", "Bulud əsaslı elektron dövlət xidmətlərinin səmərəliliyinin artırılması metodu", "Sosial şəbəkələrdə saxta profillərin aşkarlanması məsələləri", "İnformasiya iqtisadiyyatının kibertəhlükəsizliyinin təminatı istiqamətləri və texnologiyaları", "Elektron milli dövlət: Azərbaycan dilinin qorunması və inkişafı üçün imkan və perspektivlər", "Plagiatlıqla mübarizə informasiya təhlükəsizliyinin mühüm istiqaməti kimi", "Elektron dövlət mühitində fərdi məlumatların mühafizəsi problemləri", "Proqram təminatının təhlükəsizliyinin təmin olunmasının bəzi üsulları haqqında", "Proqram təminatının testləşdirilməsi üçün sınaq texnologiyalarının təhlili", "Verilənlərin sanitarizasiyası - informasiya təhlükəsizliyinin təmini kimi", "Kompüter şəbəkələrində zərərli proqramların analizi üsulları" və s. mövzularda məruzələr dinlənilib.

# Avropa Parlamentinin yeni qətnaməsi Azərbaycanın maraqlarına cavab verir

Strasburqda Avropa Parlamentinin plenar sessiyasında qurumun Xarici əlaqələr komitəsinin hazırladığı "Xarici fəaliyyət və təhlükəsizlik siyasəti" üzrə qətnamə müzakirə edilib.



AZƏRTAC xəbər verir ki, Avropa Parlamentinin Xarici əlaqələr komitəsinin sədri, Avropa Xalq Partiyasının Almaniyadan olan deputatı Devid MakAlisterin müəllifi olduğu qətnamədə Avropa İttifaqı və ona üzv olan dövlətlərin regional münaqişələrə ikili standartlarla yanaşmasını qadağan edən maddələr yer alıb. Yeni qətnamə Azərbaycanın maraqlarına tam cavab verir. Qətnamədə Avropa İttifaqının Şərq Tərəfdaşlığı ölkələrindəki dondurulmuş münaqişələrə vahid mövqedən yanaşma tələb olunur. Sənəddə digər vacib müddəa qaçqın və məcburi köçkünlərlə bağlıdır. Qətnamə Şərq Tərəfdaşlığı regionundakı münaqişələr zamanı yurd-yuvasından didərgin düşmüş insanlara Avropa İttifaqı tərəfindən yardım edilməsini nəzərdə tutur.

Xarici fəaliyyət və təhlükəsizlik siyasətinə dair yekun qətnamənin müzakirəsi zamanı erməni lobbisinin təsiri altında olan bəzi deputatların cəhdləri nəticəsiz qalıb. Onlar qətnaməyə xalqların öz müqəddəratını təyin etməsi ilə bağlı maddənin daxil edilməsini təklif etsələr də, bu təklif böyük səs çoxluğu ilə rədd edilib. Qeyd edək ki, sözügedən yekun qətnamə Avropa İttifaqının xarici siyasət istiqamətlərini müəyyən edən əsas sənəddir.

Erməni lobbisinin maraqlarına xidmət edən bəzi avropalı deputatların cəhdlərinə baxmayaraq, qətnamə böyük səs çoxluğu ilə təsdiqlənib.

Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Cavanşir Feyziyev bildirib ki, sənəddə bütün Şərq Tərəfdaşlığı ölkələrinin, o cümlədən Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədləri tanınır. Bu hesabatda vurğulanır ki, Şərq Tərəfdaşlığı ölkələrində dondurulmuş münaqişələrin həllində beynəlxalq hüquq normaları əsas götürülməlidir. Qətnamənin qəbul edilməsi Avropada Azərbaycanın haqq səsinin artıq eşidilməsindən xəbər verir. Bu isə Azərbaycan Prezidentinin uzaqgörən, qətiyyətli və müdrik siyasətinin bəhrəsidir.

Avropa parlamentinin üzvü Andrejs Mamikinis AZƏRTAC-a bildirib ki, bu sənəd çox vacibdir, Avropa İttifaqının doktrinasıdır. Sənəddə münaqişə zonalarına eyni platformadan yanaşma nəzərdə tutulub. Əvvəllər Gürcüstan, Moldova, Ukrayna kimi ölkələrdəki münaqişələrə eyni yanaşma sərgilənirdi, Azərbaycanla bağlı isə fərqli münasibət mövcud idi. Bu gün qəbul etdiyimiz yekun qətnamə bu cür ikili standartlara son qoyur. İnanıram ki, artıq Avropa Parlamentinin üzvləri Azərbaycanın region üçün daşıdığı əhəmiyyəti dərk edirlər.

**"Şərq Tərəfdaşlığı ölkələri ilə münasibətlər Avropa İttifaqı üçün prioritet məsələdir. Bu ölkələrə yanaşmada obyektiv olmalıyıq. Ölkələrə görə onların problemlərinə fərqli münasibət göstərmək məqsədəuyğun deyil. Yekun qətnamə bu çatışmazlığı aradan qaldırır. Şərq Tərəfdaşlığı ölkələrinin ərazi bütövlüyünə hörmət ifadə edilir. Fikrimcə, bu sənəd ikili standartlardan çıxış edən yanaşmalara son qoyacaq",** - deyə Avropa Parlamentinin üzvü Səyyad Kərim bildirib.

# Bakı Fond Birjası ilə UNEC arasında anlaşma memorandumu imzalanıb



Bakı Fond Birjası (BFB) ilə Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) arasında "Təhsil, elm və təlim-tədris sahəsində birgə inkişaf fəaliyyətinə dair" anlaşma memorandumu imzalanıb.

İmzalanma mərasimində UNEC-in rektoru, professor Ədalət Muradov, BFB-nin idarə heyətinin sədri Vüqar Namazov, universitetin professor-müəllim və tələbə heyəti iştirak edib.

BFB-dən AZƏRTAC-a bildiriblər ki, memorandumun imzalanmasında məqsəd tələbələrin kapital bazarları barədə biliklərinin artırılması və maarifləndirilməsi, sahiblik düşüncə tərzinin formalaşdırılması, qiymətli kağızlar bazarının inkişafına dair birgə elmi tədqiqatların aparılması, BFB-nin "Listinq Məsləhət Proqramı" çərçivəsində investisiya vasitələrinin idarə olunması prinsiplərinin aşılanması imkanlarının dəyərləndirilməsi, şirkətlərin qiymətli kağızlar bazarına çıxış üçün hazırlanması, onlara təlim və məsləhət xidmətləri göstərilməsi, qiymətli kağızlar bazarına dair biliklərin tədrisinə dəstək verilməsi və yüksəkixtisaslı kadrların hazırlanmasında birgə əməkdaşlıq etməkdir.

UNEC-in rektoru, professor Ədalət Muradov tələbələrin praktiki vərdiş və biliklərə sahib olmasında real sektorla əməkdaşlığın əhəmiyyətli rolu olduğunu bildirib. O, Bakı Fond Birjası ilə təcrübə və informasiya mübadiləsi, faydalı tədqiqatların həyata keçirilməsi peşəkar mütəxəssislərin yetişdirilməsinə zəmin yaradacağını diqqətə çatdırıb.

Bakı Fond Birjasının idarə heyətinin sədri Vüqar Namazov UNEC ilə əməkdaşlığın hər iki tərəf üçün faydalı olacağını vurğulayıb. V.Namazov elmi və praktiki institutların sinerjisinin Azərbaycanda sahiblik düşüncə tərzinin formalaşdırılması, yüksəkixtisaslı kadrların yetişdirilməsində xüsusi əhəmiyyətini qeyd edib. Həmçinin Listinq Məsləhət Proqramına cəlb edilmiş şirkətlərə fundamental biliklərin çatdırılmasında UNEC-in mühüm rol oynayacağını bildirib.

Memorandum çərçivəsində tərəflərin təhsil, elm, təlim-tədris və bu istiqamətdə inkişafyönümlü əməkdaşlığın genişləndirilməsi məsələləri üzrə müxtəlif sahələrdə müştərək proqramların hazırlanması, informasiya mübadiləsi və müvafiq layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetiriləcəyi də tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Qeyd edək ki, əməkdaşlıq çərçivəsində professor-müəllim heyətinin və tələbələrin kapital bazarları sahəsində təcrübə mübadiləsi, tələbələrarası simulyasiya yarışlarının təşkili, kapital bazarlarında mövcud problemlərin həll edilməsi məqsədilə birgə akademik müzakirələrin keçirilməsi, şirkətlərə birja fəaliyyəti və qiymətli kağızlarla bağlı mövzular üzrə tövsiyələrin verilməsi həyata keçiriləcək.

Bundan əlavə, Bakı Fond Birjasının Listinq Məsləhət Proqramına qoşulan şirkətlərin ehtiyaclarına uyğun olaraq, UNEC və BFB-nin ixtisaslaşmış ekspertləri tərəfindən təlimlərin keçirilməsi və konfransların təşkili də nəzərdə tutulub.

Professor-müəllim heyəti və magistrlərin maliyyə bazarları üzrə elmi-tədqiqat araşdırmalarına kömək məqsədilə qiymətli kağızlar bazarı haqqında məlumatların əldə olunmasında BFB tərəfindən müvafiq dəstək göstəriləcək.

# "Bakı şəhərinin Baş planının hazırlanması" işlərinin satın alınması barədə AÇIQ TENDER ELANI

Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi (bundan sonra - Komitə) Azərbaycan Respublikası Prezidentinin "Bakı şəhərinin Baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında" 27 iyun 2018-ci il tarixli 256 nömrəli Sərəncamının icrası ilə əlaqədar "Bakı şəhərinin Baş planının hazırlanması" işlərinin satın alınması məqsədilə açıq tenderə təkliflər təqdim etməyə dəvət edir. Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun şərtləri əsasında 1 lot üzrə keçirilir.

Açıq tenderdə ərazi planlaşdırma *(Baş planların)* sənədlərinin hazırlanması sahəsində müfaviq beynəlxalq təcrübəyə və təcrübəli mütəxəssislərə malik texniki və maliyyə imkanları, idarəetmə səriştəsi, peşəkarlığı və satınalma müqaviləsini bağlamaq səlahiyyəti olan, vergi və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəlikləri olmayan hüquqi şəxslər iştirak edə bilərlər. Görüləcək işlərin tərkibi və həcmi haqqında ətraflı məlumat layihə tapşırığında verilir.

Tenderdə iştirak etmək istəyənlər Komitəyə yazılı müraciət etdikdən və aşağıda qeyd edilmiş bank hesabına 850 (səkkiz yüz əlli) Azərbaycan manatı və ya 500 (beş yüz) ABŞ dolları məbləğində geri qaytarılmayan iştirak haqqını ödədikdən sonra Azərbaycan və ingilis dillərində tərtib edilmiş açıq tenderin əsas şərtlər toplusunu ala bilərlər:

VÖEN: 1400032621;
Hesab:
AZ7CTRE00000000000002278501;
AZ03IBAZ36020018409328518204
Təsnifat kodu: 142340, səviyyə kodu: 7
Bankın rekvizitləri:
Adı: Dövlət Xəzinədarlıq Agentliyi;
Kodu: 210005;
VÖEN: 1401555071;
Müxbir hesabı:
AZ41NABZ01360100000000003944
SWIFT.BİK.CTREAZ22.

Ödəniş sənədində maliyyələşdirmənin məqsədi göstərilməlidir.

Təqdim olunmuş ərizə əsasında iştirakçılara açıq tenderin əsas şərtlər toplusu elektron şəkildə göndəriləcəkdir.

İddiaçı öz təklifində satınalma müqaviləsi ilə əlaqədar tətbiq olunacaq bütün növ vergiləri *(ƏDV daxil olmaqla)* nəzərə almalıdır.

Tenderdə iştirak etmək istəyənlər iddiaçı kimi qeydiyyata alınması üçün 07 fevral 2019-cu il yerli vaxtla saat 15:00-dək Komitənin inzibati binasına və ya poçt ünvanına (tender təklifi və tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı istisna olmaqla) aşağıdakı sənədləri təqdim etməlidirlər:

**1.** Tenderdə iştirak etmək üçün ərizə;

**2.** İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;

**3.** Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);

**4.** Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü güvvədə olmalıdır);

**5.** Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətini təsdiq edən sənəd;

**6.** İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

**7.** İddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;

**8.** İddiaçının son bir ildəki fəaliyyəti barədə vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

**9.** İddiaçının vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması barədə vergi orqanından arayış;

**10.** Tenderdə iştirak etmək istəyən iddiaçı və yaxud konsorsium qismində iştirak edən iddiaçıların hər hansı biri tərəfindən şəhərsalma sənədlərinin hazırlanması üzrə xüsusi razılıq (lisenziya) sənədinin surəti;

**11.** İddiaçının müflis elan olunmaması, əmlakı üzərində həbs qoyulmaması, əmlakın girov qoyulması və digər formada öhdəliklərə yüklənməməsi, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə şirkətin özü tərəfindən verilmiş arayış, habelə tenderin əsas şərtlər toplusunda göstərilən digər sənədlər.

Sənədlər iki nüsxədə (əsli və surəti) olmaqla tərtib edilməlidir. Xarici ölkələrdən olan iddiaçıların təqdim etdikləri sənədlərlə birlikdə həmin sənədlərin Azərbaycan dilinə tərcümə olunmuş nüsxəsi əlavə edilməlidir.

İddiaçılar ixtisas dərəcələrinin artırılması məqsədilə konsorsium yarada bilərlər. Bu halda, 1-11-ci bəndlərdə qeyd olunan sənədlərdən əlavə, həmçinin konsorsium yaradılması barədə müqaviləni, eləcə də konsorsium iştirakçısı olan hər bir şirkət barədə 6-11 bəndlərində göstərilən sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tender təklifini və tender təklifinin bank təminatını bağlanmış, imzalanmış və möhürlənmiş ikiqat zərfdə 18 fevral 2019-cu il yerli vaxtla saat 15:00-a qədər Komitənin Azərbaycan Respublikası, Bakı şəhəri, Füzuli küçəsi, 65 ünvanında yerləşən inzibati binasına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim edilmiş təklif zərfləri açılmadan geri qaytarılacaqdır. Tender təklifləri Azərbaycan və ingilis dillərində, iki nüsxədə (əsli və surəti olmaqla) tərtib edilməlidir.

İddiaçıların tender təklifi təklif zərflərinin açıldığı tarixdən sonra azı 30 bank günü (ən azı 11 aprel 2019-cu il tarixinə kimi) qüvvədə olmalıdır, tender təklifi qiymətinin 1%-i həcmində bank təminatının qüvvədə olma müddəti isə tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox (ən azı 27 may 2019-cu il tarixinə kimi) olmalıdır.

İddiaçıların təklifləri olan zərflərin açılışı 19 fevral 2019-cu il yerli vaxtla saat 15:00-da yuxarıda göstərilən ünvanda keçiriləcəkdir. İddiaçıların səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər:

İddiaçılar bu tenderin əsas şərtlər toplusunda göstərilmiş keyfiyyət və qiymət seçim (KQS) üsuluna əsasən seçiləcəkdir.

Tender təklifi texniki və maliyyə təkliflərindən ibarət olmalıdır.

Texniki təklifin qiymətləndirmə meyarları:

- iddiaçının analoji təcrübəsi - 30 bal;
- təklif olunan iş planı və metodikanın layihə tapşırığına uyğunluğu - 25 bal;
- əsas heyətin (mütəxəssislərin) ixtisas dərəcəsi və təcrübəsi - 45 bal.

Texniki qiymətləndirmənin minimal keçid balı - 70 bal.

Maliyyə təklifinin qiymətləndirmə meyarı - ən aşağı qiymətdir.

Açıq tender elanı rəsmi internet saytında yerləşdirilmişdir.

Əlaqələndirici şəxs - Günel Məlikova.

Telefon: (+99412) 493-34-67 (dax.129)

Faks: (+99412) 498-14-14

Email: masterplan@arxkom.gov.az

Ünvan: AZ1014, Bakı şəhəri, Füzuli küçəsi, 65.

**TENDER KOMİSSİYASI**

## Bakı Yunus Əmrə İnstitutunun müdiri Cihan Özdəmir "Yeni Azərbaycan" qəzetinin redaksiyasında olub

Dekabrın 14-də Bakı Yunus Əmrə İnstitutunun müdiri Cihan Özdəmir "Yeni Azərbaycan" qəzetinin redaksiyasında olub. Görüşdə Türkiyə ilə Azərbaycan arasında münasibətlərin dostluq və qardaşlıq prinsipinə söykəndiyini deyən Cihan Özdəmir iki ölkə arasında əlaqələrin bütün sahələrdə olduğu kimi, mədəniyyət, ədəbiyyat, elm və təhsil sahəsində də uğurla inkişaf etdiyini bildirib. Qonaq iki ölkə arasında sözügedən sahələrdəki əlaqələrin daha da inkişafı üçün təmsil etdiyi qurumun müxtəlif tədbirlər keçirdiyini qeyd edib.



Cihan Özdəmir iki qardaş ölkənin mədəniyyət və ədəbiyyat sahəsində fəaliyyət göstərən təşkilatları, eləcə də elm və təhsil müəssisələri arasında qarşılıqlı fikir və təcrübə mübadiləsinin aparılmasının mühüm əhəmiyyətə malik olduğunu da deyib. Bakı Yunus Əmrə İnstitutunun müdiri bu istiqamətdə KİV-in də üzərinə böyük vəzifə düşdüyünü söyləyib.

Bakı Yunus Əmrə İnstitutunun fəaliyyətinin məmnunluq doğurduğunu deyən "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu isə Azərbaycanla Türkiyə arasındakı dostluq və qardaşlıq münasibətlərinin sarsılmaz olduğunu bildirib. **"Azərbaycan ilə Türkiyə arasında münasibətlər Ümummilli lider Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" fəlsəfəsinə söykənir"**, - deyən millət vəkili əlavə edib ki, bu münasibətlər regionda və daha geniş coğrafiyada əməkdaşlıq və təhlükəsizliyə xidmət edir. Millət vəkili Azərbaycan ilə Türkiyə arasında müxtəlif sahələri əhatə edən əlaqələrin daha da inkişafı və genişlənməsi istiqamətində ictimai institutların, o cümlədən KİV-in fəaliyyətinin xüsusi əhəmiyyət daşıdığını da bildirib.

## YAP Gənclər Birliyinin ofis rəhbəri Ho Şi Min adına Kommunist Gənclər Birliyi Mərkəzi Komitəsinin Beynəlxalq Əlaqələr şöbəsinin müdiri ilə görüşüb





Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyəti Vyetnam Kommunist Partiyasının dəvəti ilə Hanoy şəhərində rəsmi səfərdədir. Səfər çərçivəsində YAP Gənclər Birliyinin ofis rəhbəri Fərid Nəsibov Ho Şi Min adına Kommunist Gənclər Birliyi (komsomol) Mərkəzi Komitəsinin Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Nguyen Hai Minh ilə görüşüb.

Görüşdə partiyaların gənclər birlikləri arasında qarşılıqlı əlaqə və fikir mübadiləsi, eləcə də birgə layihələrin reallaşdırılması ilə bağlı müzakirələr aparılıb.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında əlaqələrin inkişafı qarşılıqlı məmnunluq doğurur. Bir neçə il öncə tərəflər arasında əməkdaşlıq haqqında Memorandumun imzalanması münasibətlərin inkişafında mühüm rola malikdir. Həmçinin hər iki partiyanın İCAPP çərçivəsində fəal əməkdaşlığı da mühüm əhəmiyyət kəsb edir.

## "Dayanıqlı İnkişaf Məqsədlərinin gənclər vasitəsilə təbliği" mövzusunda maarifləndirici təlim maraqla qarşılanıb



Naxçıvan şəhərindəki Gənclər Mərkəzində BMT Uşaq Fondunun və Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun birgə təşkilatçılığı ilə muxtar respublikanın ali və orta ixtisas məktəblərinin tələbələrinin iştirakı ilə "Dayanıqlı İnkişaf Məqsədlərinin gənclər vasitəsilə təbliği" mövzusunda keçirilən maarifləndirici təlim başa çatıb.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, tədbirdə BMT Uşaq Fondunun Azərbaycandakı nümayəndəsi Edvard Karvardin çıxış edərək Naxçıvanda gənclərin inkişafına yönəlmiş geniş imkanların yaradıldığının şahidi olduğunu vurğulayıb.

BMT-nin Azərbaycandakı ofisində humanitar proqramlar üzrə analitik Elgün Tağıyev çıxışında keçirilən təlimin əhəmiyyətindən danışıb, gənclərin bu sahədə fəallığının təqdirəlayiq hal olduğunu diqqətə çatdırıb.

Təlimi BMT-nin Gənclər üzrə Məşvərət Şurasının üzvləri Şəhla Mirzəzadə və İlkin Əliyev aparıblar.

Əvvəlcə gənclərə təlimin ilkin anlayışlarını izah edən yazılı testlər təqdim olunub, intellektual oyunlar keçirilib. Bundan başqa, təlim müddətində gənclərə Dayanıqlı İnkişaf Məqsədləri barədə ətraflı məlumat verilib, onların fikir və mülahizələri dinlənilib, suallara aydınlıq gətirilib.

## Ermənistanda anti-Rusiya əhval-ruhiyyəsi yenidən qızışdırılır

*Paşinyana yaxın erməni mediası rəsmi Moskvadan təbrik gəlməməsini və Gümrüdə yaşlı qadının öldürülməsini bəhanə edərək süni ajiotaj yaradır*

Ermənistanda bir neçə ay öncə Nikol Paşinyanın zorla hakimiyyəti ələ keçirməsindən sonra vaxtaşırı güclənən anti-Rusiya əhval-ruhiyyəsi yenidən qızışmaqdadır. Belə ki, erməni mediası Rusiya prezidenti Vladimir Putinin Nikol Paşinyanı "qələbə" münasibətilə təbrik etməməsini və Gümrü şəhərində bir erməni qadınının öldürülməsini bəhanə edərək süni ajiotaj yaradır.

Daha dəqiq desək, Rusiya rəhbərliyinin N.Paşinyanı təbrik etməməsi erməni mediasında xüsusi olaraq gündəmdə saxlanılır. Düzdür, məsələyə münasibət bildirən Rusiya Federasiyasının birinci dərəcəli dövlət müşaviri Modest Kolerov erməni mediasının qaraqışqırıq salmasının əsassız olduğunu deyib. M.Korelov "168 jam" qəzetinə müsahibəsində bildirib ki, Rusiya prezidenti hazırda baş nazir vəzifəsini müvəqqəti icra edən N.Paşinyanı təbrik etməməlidir: **"Bu, Rusiya prezidenti Vladimir Putinin səviyyəsində hadisə deyil. Baş nazir D.Medvedev və Dövlət Dumasının sədri V.Volodin bu məsələyə məsul şəxslərdir və yəqin ki, onlar reaksiya verəcəklər".**

Qəzetin yazdığına görə, alman politoloq Aleksandr Rar isə bildirib ki, bundan sonra hər hansı səviyyədə təbrik olsa belə, Rusiya tərəfi artıq öz mesajını çatdırıb və Ermənistan hakimiyyəti məsələnin nə yerdə olduğunu yaxşı bilir.

Qeyd edək ki, Rusiya tərəfinin bu izahı Ermənistanda heç də razılıqla qarşılanmayıb. Belə ki, N.Paşinyana yaxın KİV-lər təkcə Rusiyanın deyil, həm də digər KTMT üzvü dövlət başçılarının onu təbrik etməməsinə olduqca ağrılı reaksiya verirlər. Məsələn, siyasi şərhçi Stepan Danielyan MDB ölkələrinin bir çoxunun və KTMT-yə üzv olan dövlətlərin başçılarının N.Paşinyanı təbrik etməməsinin səbəbini Ermənistanın eks-prezidenti R.Koçaryanın həbsi ilə əlaqələndirib.

Bu məqamda onu da qeyd edək ki, Ermənistan mediasında KTMT əleyhinə təbliğata yenidən start verilib. Bu da səbəbsiz deyil. Belə ki, KTMT-yə üzv dövlətlərin başçıları yeni baş katibin seçilməsi məsələsini həll etməyə başlayıblar. Artıq Qazaxıstan prezidenti Nursultan Nazarbayevin KTMT baş katibi vəzifəsinə Belarusun namizədi olan Stanislav Zasyanı qəbul etməsi və görüşdə Sankt-Peterburqda dövlət başçılarının onun namizədliyini dəstəkləməyi qərara aldıqlarını bəyan etməsi Ermənistan tərəfini tamamilə özündən çıxarıb.

Yeri gəlmişkən, Nikol Paşinyana yaxın erməni mediası Rusiya əleyhinə təbliğatda, eyni zamanda dekabrın 2-də Gümrüdə baş verən hadisədən də istifadə edir. Məlumat üçün bildirək ki, Gümrüdə xadimə işləyən 57 yaşlı Culyetta Qazaryan dekabrın 2-də döyüldükdən sonra xəstəxanaya aparılıb və orada ölüb. Sonradan belə bir xəbər yayılıb ki, Rusiyanın Gümrüdəki 102-ci hərbi bazasının hərbi qulluqçusu bu qətldə şübhəli bilinərək həbs edilib. Hərçənd ki, Rusiyanın Ermənistandakı səfirliyi hadisədə rus hərbçisinin iştirakını təkzib edib. Üstəlik, bu məsələ seçki ətəfəsində və sonrakı günlərdə diqqət mərkəzində olmayıb.

Qeyd edək ki, qadının qızı anasının rus hərbçisi tərəfindən öldürülməsini inkar etsə də, erməni mediası məsələ ətrafında süni ajiotaj yaradır. Həmin hadisənin Ermənistan hakimiyyəti üçün "biabırçılıq" olduğunu yazan bəzi media qurumları isə hətta bu məsələdə səssiz qalmasına görə Paşinyanı da tənqid ediblər.



Hadisədə günahı sübut olunmayan rus hərbçisini hərbi hissədən çıxarıb hüquq-mühafizə orqanlarına təhvil verilməsini tələb edənlər təxminən 4 il əvvəl Permyakın erməni ailəsini qətlə yetirəndə bütün ölkədə etiraz dalğası baş verdiyini xatırladırlar. Hazırda cəmiyyətin bu məsələyə son dərəcə laqeyd yanaşdığını qeyd edən erməni mediası keçmiş hakimiyyətin belə hadisələrə daha çevik reaksiya verdiyini xüsusi vurğulayır.

İctimai rəyin Rusiya əleyhinə kökləndiyini görən erməni radikalları isə Rusiya hərbi bazasının Ermənistandan çıxarılması tələbini yenidən gündəmə gətiriblər. Məsələn "Sasuna Tsrer" terror təşkilatı adından yayılan bəyanatda erməni hökumətinə bu hadisədən bəhanə kimi istifadə edərək Rusiya bazasının Ermənistanda yerləşdirilməsinə dair müqaviləyə yenidən baxılması və qoşunların çıxarılması prosedurunu gündəmə gətirməyə çağırış yer alıb.

Beləliklə, görünən odur ki, saxta seçkidən sonra rəsmi Moskva tərəfindən lazımi diqqət görməyən Paşinyana yaxın media orqanları mütəmadi olaraq Rusiya əleyhinə təbliğat aparır, KTMT-ni hədəfə alırlar. Bütün bunlar isə səriştəsiz, həmçinin adını seçki saxtakarlığı ilə "tarixə yazdıran" Nikol Paşinyana heç də yaxşı gələcək vəd etmir.

**Qaşqay ZİYƏDDİNOĞLU**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF
www.kivdf.gov.az

# Regionlarda arıçılığın inkişafı üçün stimullaşdırıcı tədbirlər görülür

*Kənd Təsərrüfatı Nazirliyinin müvafiq komissiyasının bu günlərdə keçirilən iclasında 26 rayon komissiyasından daxil olmuş sənədlərə baxılıb, 2189 arıçıya dövlət büdcəsinin vəsaiti hesabına hər arı ailəsinə 10 (on) manat hesabı ilə subsidiyanın verilməsi barədə qərarlar qəbul edilib*



Son illərdə qeyri-neft iqtisadiyyatının üstün inkişafının təmin olunmasını hədəfləyən Azərbaycanda aqrar sektorda bir sıra gəlirli sahələrdə istehsal və ixrac imkanlarının artırılmasına xüsusi diqqət göstərilir. Belə gəlirli sahələrdən biri də arıçılıqdır. Məlum olduğu kimi, Prezident İlham Əliyev 2018-ci il 5 mart tarixində “Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında” müvafiq Sərəncam imzalayıb. Sərəncama əsasən, arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə 2018-ci il də daxil olmaqla, 5 il müddətində ildə 10 manat məbləğində subsidiya müəyyən edilib.

Kənd təsərrüfatı nazirinin müavini İlham Quliyevin bildirdiyinə görə, stimullaşdırıcı tədbirlər hesabına respublikada arı ailələrinin sayının 2 dəfə artacağı proqnozlaşdırılır. Hazırda isə ölkədə 250-300 min arı ailəsi mövcuddur.

## ARIÇILIĞIN İNKİŞAFININ STİMULLAŞDIRILMASI HAQQINDA MÜVAFİQ SƏRƏNCAMIN İCRASI YÜKSƏK SƏVİYYƏDƏ TƏMİN EDİLİR

Respublikamızda arıçılığın inkişafının stimullaşdırılması haqqında müvafiq Sərəncamın icrası yüksək səviyyədə təmin edilir. Elə bu günlərdə Kənd Təsərrüfatı Nazirliyində arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə subsidiyanın verilməsi üzrə Respublika Komissiyasının növbəti iclası keçirilib. Nazirliyin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən KİV-ə bildiriblər ki, Respublika Komissiyasının sədri, kənd təsərrüfatı nazirinin müavini İlham Quliyevin sədrliyi ilə keçən iclasda 26 rayon komissiyasından daxil olmuş sənədlərə baxılıb, 2189 arıçıya dövlət büdcəsinin vəsaiti hesabına hər arı ailəsinə 10 (on) manat hesabı ilə subsidiyanın verilməsi barədə qərarlar qəbul edilib.

İclasda Azərbaycan Arıçılar Assosiasiyasının nümayəndələri də iştirak ediblər. Rayon (şəhər) komissiyalarından daxil olan sənədlərə baxılması məqsədilə yaradılmış işçi qrupuna Kənd Təsərrüfatı Nazirliyinin nümayəndələri ilə yanaşı, Azərbaycan Arıçılar Assosiasiyasının təmsilçiləri də daxildir.

## REGİONLARDA ARI AİLƏLƏRİ QEYDİYYATA ALINIR

Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında” 2018-ci il 5 mart tarixli Sərəncamının icrası ilə əlaqədar olaraq regionlarda arı ailələri ilk dəfə qeydiyyata alınır. Bu proses Astara rayonunda da uğurla həyata keçirilir. Belə ki, fermerlərə ödəniləcək subsidiyaların məbləğini müəyyənləşdirmək məqsədilə arı ailəsinin saxlandığı pətəyin üzərinə nömrə nişanları vurularaq onların qeydiyyatı aparılır.

Astaralı arıçılar Azərbaycan Prezidentinin Sərəncamına əsasən arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə 2018-ci il də daxil olmaqla 5 il müddətinə 10 manat məbləğində subsidiyanın verilməsini razılıqla qarşılayıblar. Astara Arıçılar Cəmiyyətinin sədri Arif Nəzirov Prezidentin Sərəncamının icrası ilə bağlı rayonda görülən təşkilati işlərdən danışarkən deyib: **“Subsidiyanın verilməsinin əsas məqsədi arıçılığın inkişafına dövlət dəstəyi göstərmək, arı ailələrinin genofondunu qorumaqdır. Arıçılarımız qış hazırlığını yekunlaşdırmaq üzrədir. Bu müddət ərzində arı ailələri nəzərdən keçirilib, mövsüm zamanı bol məhsul götürmək üçün müvafiq tədbirlər görülüb”.**

Qeydiyyata alınan arı ailələri barədə sənədlərin subsidiyanın verilməsi üzrə komissiyaya təqdim edilməsindən sonra vəsaitin arıçıların hesabına köçürüləcəyini vurğulayan A.Nəzirov ölkəmizdə kənd təsərrüfatının ənənəvi təsərrüfat sahələrindən olan arıçılığın inkişafına göstərilən dövlət dəstəyinə görə astaralı arıçılar adından dövlətimizin başçısına minnətdarlığını bildirib. Qeyd edək ki, hazırda Astara rayonunda 27 min arı ailəsi var. İndiyədək 16 min arı ailəsi identifikasiya kodu ilə qeydiyyata alınıb.

Ağcabədi rayonunda da arı ailələrinin (pətəklərin) identikləşdirilməsi həyata keçirilir. Bu barədə KİV-ə Ağcabədi rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin sektor müdiri Etibar Mamedov məlumat verib. O bildirib ki, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən yaradılan rayon komissiyası məlumatları yerində dəqiqləşdirərək arı ailələrinin mövcudluğunu yoxlayır. Ağcabədi rayonu üzrə 220 arıçının saxladığı 3800 pətək qeydiyyata alınıb. Hazırda arı ailələrinin identikləşdirilməsi davam etdirilir, düzbucaqlı formada plastik materialdan hazırlanan lövhə şrup vasitəsilə pətəyə bərkidilir. Arı ailələrinin yoxlanılması və mövcudluğu haqqında rayon komissiyası tərəfindən icmal siyahı, akt və müvafiq sənədlər tərtib edilərək, respublika komissiyasına göndərilir.

Masallıda ilkin mərhələdə arıçılıqla məşğul olan 90 nəfərə 2244 arı ailəsi üçün 22 min 440 manat məbləğində subsidiya ayrılıb. Rayonun Hişkədərə kəndində 4, Miyankü kəndində 3, Ərkivan qəsəbəsində 18, Çaxırlı kəndində 14, Yeddioymaq kəndində 16, Sərçuvar kəndində 19, Gəyəçöl kəndində 11 və Səmidxan kəndində 5 ailə subsidiyadan yararlanacaq.

Masallıdakı arı ailələrinin və arıçıların uçotunun aparılması üçün 4 işçi qrupu yaradılıb. İşçi qrupları tərəfindən aparılmış monitorinqlər nəticəsində rayonda 9 mindən çox arı ailəsinin olduğu müəyyənləşib.

## SUMQAYITDA İSTİFADƏYƏ VERİLƏN YENİ MÜƏSSİSƏDƏ HƏR İL 10 TON ARI TORTUNUN İSTEHSALI PLANLAŞDIRILIR

Türkiyə Respublikasının Azərbaycandakı səfirliyi, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) və “Dağ arıçıları” İctimai Birliyinin sədri, Qubadlı rayon sakini, arıçılıq üzrə mütəxəssis Yusif Quliyevin birgə köməkliyi ilə Sumqayıtda bal və bal məhsullarının qablaşdırılması və arı yemi istehsalı müəssisəsi yaradılıb.

Noyabrın 29-da Sumqayıt şəhərinin Yaşıldərə yaşayış massivində yerləşən müəssisənin açılış mərasimi keçirilib. Tədbirdə Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral, Qubadlı rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov, TİKA-nın nümayəndəsi Teoman Tiryaki, “ABAD” (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxsin direktoru Rüfət Elçiyev, Kənd Təsərrüfatı Nazirliyinin heyvandarlıq şöbəsinin mütəxəssisi Fəxrəddin Səmədov, rayonun idarə, müəssisə rəhbərləri və arıçılıqla məşğul olan şəxslər iştirak ediblər.

Açılış mərasimində Azərbaycanda arıçılığın inkişafına göstərilən dövlət dəstəyindən danışılıb, bu sahənin perspektivlərindən bəhs olunub. Bildirilib ki, arıçılığı inkişaf etdirmək məqsədilə son illərdə “Dağ arıçıları” İctimai Birliyi bir sıra tədbirlər həyata keçirib. Bunun nəticəsi olaraq arı ailələrinin sayı 5200-ə yaxınlaşıb. Arı ailələrinin sayının artırılması ilə yanaşı, məhsuldarlığın yüksəldilməsi, damazlıq-seleksiya işlərinin yaxşılaşdırılması, istehsal olunan arı məhsullarının mərkəzləşdirilmiş qaydada qablaşdırılması və etiketləmə məsələləri də diqqətdə saxlanılıb. Azərbaycan Prezidentinin Sərəncamı ilə arıçılara subsidiyanın ayrılması isə bu sahənin inkişafına əlavə təkan verəcək.

Açılış mərasimindən sonra müəssisə ilə tanışlıq olub. Qeyd edilib ki, arıçılar tərəfindən istehsal edilən ballar müəssisədə “Dağ arıçıları” İctimai Birliyi tərəfindən qablaşdırılır və “Qarabağlı” markası altında satışa çıxarılır. İstehsal həcmi ildə 20 ton olan müəssisədə birinci mərhələdə məcburi köçkün arıçıların məhsulları bir marka ilə buraxılacaq. Həmçinin müəssisədə hər il 10 ton arı tortunun istehsalı da planlaşdırılır və arıçılara münasib qiymətə satılacaq.

## DAMAZLIQ-SELEKSİYA İŞİNİN APARILMASI ARIÇILIĞIN İNKİŞAFI ÜÇÜN VACİB ŞƏRTLƏRDƏN BİRİDİR

**“İqtisadi cəhətdən gəlirli sahə olan arıçılıq həm də ətraf aləmin, ekoloji mühitin yaxşılaşdırılması baxımından ən səmərəli təsərrüfat sahəsi hesab olunur”.** Bu fikri Biləsuvar rayonunda arıçılıqla məşğul olan, Bakıda keçirilən 19-cu arıçılıq məhsullarının sərgi-satış yarmarkasının iştirakçısı Hikmət Əliyev ifadə edib.

Otuz bir ildir arıçılıqla məşğul olan Hikmət Əliyev deyib: **“Damazlıq-seleksiya işinin yüksək səviyyədə aparılması arıçılığın inkişafında mühüm rol oynayır. Bu bölgədə tarixən mövcud olan və dünyada ən məhsuldar arı cinslərindən sayılan Boz Qafqaz cinsi artıq cırlaşıb, məlezləşib. Bu gün arıların cins tərkibinin yaxşılaşdırılması biz arıçıların ən ümdə məsələsidir. Arıçılıqda məhsul istehsalına müsbət təsir edən əsas amillərdən biri erkən yaz dövründə arı ailələrinə düzgün qulluq edilməsidir. Yaz mövsümündə arıçıların arı pətəklərində görəcəyi işlər bol məhsulun əldə olunması baxımından əhəmiyyətlidir”.**

Hikmət Əliyev arı xəstəliklərindən danışarkən qeyd edib ki, yaz yoxlanışı zamanı pətəklərdə arı xəstəliklərinin olub-olmamasına nəzarət etmək vacibdir: **“Arı xəstəliklərinin vaxtında aşkarlanmaması, xəstəliklərə qarşı mübarizə tədbirlərinin görülməməsi arı ailəsinin məhv olmasına gətirib çıxarır. Bundan başqa, xəstəliklər nəticəsində zəifləmiş ailələrdə məhsuldarlıq da aşağı düşür. Təsərrüfatımızda arı xəstəliklərinə qarşı təbii üsullardan - bitki qarışığı və çiləmə metodundan istifadə edirik. Otları dəmləyib pətəklərə çiləyirik. Arıların fəal nektar gətirdiyi vaxtlar, profilaktik tədbirlər zamanı, kimyəvi vasitələrdən istifadə etmək olmaz, o cümlədən antibiotiklərdən istifadə yolverilməzdir. Arıçı yaradıcı olmalı, hər il öz təsərrüfatında yeniliklər tətbiq etməlidir. Arı bizə əməksevərliyi öyrədir”.**

H.Əliyev arıçılıqda müşahidə qabiliyyətinin vacib əhəmiyyət kəsb etdiyini vurğulayıb: **“Müşahidə etdiyim maraqlı hadisəni danışmaq istərdim. Pətəklərə baxış keçirdiyim zaman gördüm ki, arılar analıqda ana yetişdirirlər. Pətəyi nişanladım. Təkrar yoxlayan zaman iki ananın bir yerdə işlədiyini gördüm. Belə hadisəyə praktikamda rast gəlməmişdim. Amma arılar bir anaya qayğı göstərir, digərinə laqeyd yanaşırdılar. Zəif bəslənilən ana arını məcbur olub götürdüm. Adətən, pətəkdə iki ana arı olduqda biri digərini öldürür”.**

**Mübariz ABDULLAYEV**

# Multikulturalizm Mərkəzi xarici universitetlərdə azərbaycanlıların soyqırımının 100 illiyi mövzusunda silsilə tədbirlər keçirib





Məlumdur ki, iri dövlətlərin himayəsi altında fəaliyyət göstərən erməni millətçiləri “böyük Ermənistan” xülyasını reallaşdırmaq üçün tarixin müxtəlif dövrlərində azərbaycanlılara qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçiriblər.

Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 100 il bundan əvvəl - 1918-ci ilin mart-aprel aylarında daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlar hesab olunur. Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib, yaşayış məntəqələri dağıdılıb, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə yeksan edilibdir. Sonrakı dövrlərdə erməni millətçiləri qeyri-insani əməllərini davam etdirərək, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçiriblər. Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumət ermənilərin törətdikləri ağır cinayətlərin araşdırılması üçün Fövqəladə İstintaq Komissiyası yaradaraq, üzə çıxarılan həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görüb. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılıb, baş verənlərin sona qədər təhqiq edilməsi və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınıb. Yalnız 80 il sonra - 1998-ci il martın 26-da Ümummilli lider Heydər Əliyevin imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib və 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Ötən 20 il ərzində aparılan araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanıb. Bu tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında, habelə sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş, faciə qurbanlarının sayının isə qat-qat çox olduğunu sübut edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə bu il yanvarın 18-də “1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında” Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına 1918-ci il azərbaycanlıların soyqırımının 100-cü ildönümünə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılıb. Fevral ayında isə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev “1918-ci il azərbaycanlıların soyqırımının 100-cü ildönümünə dair Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Bu sərəncama əsasən, bir çox məsul dövlət orqanları və təşkilatlar kimi, Prezident Administrasiyası Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinə, eləcə də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə il ərzində 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi ilə bağlı tədbirlər həyata keçirmək tapşırılıb. İtaliyanın La Sapienza Universiteti, Hindistanın Şri-Şri Universiteti, Gürcüstanın Tbilisi Dövlət Universiteti, Rusiyanın Ural Federal Universiteti, Bolqarıstanın Sofiya Universiteti, Yaponiyanın Hokkaydo Universiteti, Polşanın Vrotslav Universiteti, Fransanın İnalko Universiteti və Türkiyənin Ərciyəz Universitetində bu ilin mart-noyabr aylarında elmi mühazirələr təşkil edilib. Yaponiyanın Hokkaydo Universitetində onlarla tələbənin iştirak etdiyi mühazirədə tarixi mənbələrə, rəsmi sənədlərə əsasən, ötən bir əsr ərzində erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərdən söz açılıb. Bolqarıstanın Sofiya Universitetində təşkil edilən dərsdə isə Azərbaycan Müdafiə Nazirliyinin 1918-ci il azərbaycanlıların soyqırımı haqda hazırladığı ingilis dilində sənədli film nümayiş olunub. 1905-ci və 1918-ci ilin kütləvi qırğınları, 1948-1953-cü illərin deportasiyası, 1992-ci ilin Xocalı soyqırımı haqda geniş məlumat verilib. Elmi mühazirələrdə o da vurğulanıb ki, 3 dəfə soyqırıma məruz qalmasına və 20 faizdən çox torpaqlarının işğal olunmasına baxmayaraq, bu gün də azərbaycanlı ailəsində uşaqlar erməni xalqına qarşı düşmənçilik ruhunda tərbiyə edilmirlər. Baş verənlər erməni millətçilərinin vəhşi siyasəti kimi şərh olunur. Bu isə Azərbaycanda həyat tərzi olan multikulturalizmin bariz nümunəsidir.

“1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında” Sərəncama əsasən, cari ildə BBMM bir çox digər tədbirləri də həyata keçirib. Bu tədbirlər çərçivəsində mart ayında Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində “Erməni terroru Azərbaycan multikulturalizminə qarşı: 1918-2018” mövzusunda Beynəlxalq konfrans təşkil edilib. Konfransda Fransa, Rusiya, Türkiyə, İran, Moldova, eləcə də Azərbaycandan olan araşdırmaçı alimlər məruzə ilə çıxış ediblər. Bu günlərdə isə Bakı şəhərində keçirilən beynəlxalq konfransların materialları bir yerə toplanaraq “Terror multikulturalizmə qarşı “Azərbaycanlıların soyqırımı-100” adı altında nəşr olunub. Bu layihə çərçivəsində virtual “dəyirmi masa” materiallarının ingilis və rus dillərinə tərcüməsi, eləcə də kitabın yenidən tərtibi də təşkil edilib.

1918-ci ildə erməni vandalizminə məruz qalan, azərbaycanlılara qarşı soyqırımının törədildiyi tarixi məkanlardan biri olan Şamaxı Cümə məscidinin konfrans zalında “Azərbaycanın dini-mədəni abidələrinə qarşı erməni vəhşiliyi” mövzusunda keçirilən tədbir də torpaqlarımızda sığınacaq tapan ermənilərin əsl xislətini bir daha göstərməyə həsr olunub. İyul ayında BBMM, DQİDK və Şamaxı rayon İcra Hakimiyyəti ilə birgə təşkil olunan konfransda çıxış edən alimlər yerli ermənilərin insanları necə aldatdıqlarını, hətta məscidlərə pənah gətirən ahıl, qadın və uşaqları da vəhşicəsinə yandırdıqlarını konkret faktlarla qeyd ediblər.

1918-ci ilin mart soyqırımında ermənilərin azərbaycanlılara qarşı törətdikləri qətliamlar haqqında həqiqətlərin təbliği günümüzün aktual mövzularından biri olaraq qalır. Çünki nə qədər ki, mənfur qonşularımız Azərbaycan dövlətinə qarşı öz ərazi iddialarından əl çəkməyiblər, Azərbaycan torpaqları hesabına öz ərazilərinin genişləndirilməsi istəkləri müxtəlif formalarda özünü büruzə verəcəkdir. Dünya ictimaiyyətinin diqqətini xalqımızın başına gətirilən qanlı faciələrə cəlb etmək üçün azərbaycanlılara qarşı ermənilərin həyata keçirdiyi soyqırımı və deportasiya siyasətinin geniş şəkildə tədqiqi və beynəlxalq aləmdə yayılması zəruridir. Ümummilli lider Heydər Əliyev əbəs yerə deməmişdir: **“Bu gün dövlətimiz və xalqımız qarşısında azərbaycanlılara qarşı əsrlər boyu aparılan soyqırımı siyasəti haqqında həqiqətləri dünyaya yaymaq, beynəlxalq ictimai fikirdə ədalətin bərqərar olmasına nail olmaq, soyqırımı siyasətinin ağır nəticələrini aradan qaldırmaq və bir daha təkrar olunmaması üçün ciddi tədbirlər görmək vəzifəsi durur”.**

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin mətbuat xidməti**

# Bakcell sosial şəbəkə istifadəçiləri üçün növbəti müsabiqə elan edib

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti sosial şəbəkələrdən aktiv istifadə edən abunəçiləri maraqlı onlayn müsabiqədə iştirak edib dəyərli hədiyyə qazanmağa dəvət edir.




Dekabr ayının 14-də “Bakcell”in “Facebook” və “Instagram”dakı rəsmi səhifələrində start götürmüş müsabiqəyə qatılacaq abunəçilər simsiz Apple “AirPods” qulaqcıqları, Xiaomi “power bank” və ya 100 AZN dəyərində hədiyyə kartına sahib olmaq şansını qazanacaqlar.

Müsabiqədə iştirak etmək üçün abunəçilər “Bakcell”in “Instagram”dakı müvafiq postunu, “Facebook”da isə səhifəsini və müvafiq postunu bəyənib http://bit.ly/daimonline linkində yerləşdirilmiş çərçivə ilə şelfi çəkməli və öz səhifəsində açıq şəkildə #DaimOnline heşteqi ilə paylaşmalıdır. Çərçivə Facebook proqramı vasitəsilə açılır.

Qeyd edək ki, müsabiqədə yalnız Bakcell abunəçiləri iştirak edə bilər. Bağlı və saxta (feyk) profillərdən paylaşılan şəkillər nəzərə alınmayacaq. Müsabiqə 25.12.2018 tarixində saat 23:59-da bitəcək və qaliblər random.org saytı vasitəsilə şərtlərə əməl etmiş iştirakçılar arasından seçilərək 26.12.2018 tarixində elan olunacaq.

Müsabiqə haqqında daha ətraflı məlumat “Bakcell”in rəsmi Facebook və Instagram səhifələrində yerləşdirilib.

Sosial media vasitələri məhsul və xidmətlər haqqında məlumatların geniş abunəçi bazasına daha effektiv şəkildə çatdırılması və müştərilərin suallarının cavablandırılması baxımından “Bakcell”in vacib kommunikasiya vasitələrindən biridir. Şirkətin bir çox populyar sosial şəbəkədə rəsmi səhifəsi fəaliyyət göstərir.

Yüksək keyfiyyətli xidmətin göstərilməsi və müştəri məmnuniyyəti “Bakcell”in fəaliyyətinin prioritet istiqamətlərindəndir. Şirkətin müştəri məmnuniyyəti strategiyası əhalinin bütün təbəqələrinin tələb və ehtiyacları nəzərə alınmaqla dünyanın aparıcı şirkətlərinin və yerli bazarın tələblərinə əsaslanır.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
“AZƏRTAC”,
“Azadinform”, “SİA”
Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Zahid İLHAMOĞLU